Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

29 APREL 2020-ci il

№ 67 (4198)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİSTAN SİYASİ-İQTİSADİ TƏDQİQATLAR İNSTİTUTUNUN DİREKTORUNUN BÖYÜK ETİRAFI - AZƏRBAYCAN BÖYÜYÜR, BİZİ «UCUZ ŞOULARLA»...

■ səh. 8 ■

Azərbaycan Ukraynada Ermənistanın dayaqlarını tam sarsıdır - İrəvanın saxta "soyqırım" strategiyası burada da iflasa uğradı

■ səh. 7 ■

Ermənistan mərhələli həllə vadar edilir...

■ səh. 9 ■

Ermənistanda siyasi mübarizə "ailə davaları" formasına keçir - Paşinyanın təzə adı: "Amerikanın Nikolu"...

■ səh. 8 ■

Azərbaycanın "bolşevik işğalı" - Qarabağ problemi tarixində yeni "erməniçilik" mərhələsi...

■ səh. 6 ■

Koronavirus dövründə 4 bank barədə ilginc qərar - ləğv edilə, birləşdirilə bilərmi..., artıq 2-si ləğv edildi

■ səh. 10 ■

Neftin ucuzlaşması ABŞ-ı çökdürür, Vaşinqton qiymət yüksəlişi üçün sərt müdaxiləyə hazırlaşır

■ səh. 11 ■

Ticarətlə məşğul olanların da sosial sığorta yükü 50 faiz azaldılır...

■ səh. 14 ■




## Pandemiya ilə əlaqədar tək Əmək... Nazirliyi xətti ilə dəstək 5 milyona yaxın insanı əhatə edir - ölkənin yarısı...

■ səh. 4 ■




Köhnə məmur korpusundan qalanların İsmayıllıda yeni başçıya qarşı demarşları, ya...

■ səh. 5 ■



Koronavirus dövründə xaricdə müvəqqəti qalmış vətəndaşlarımız və tələbələr üçün Azərbaycan nələr et(mə)di?...

■ səh. 3 ■

ABŞ Konqresində milli maraqlar üzərinə növbəti erməni yürüşü - 30 senator qondarma «DQR»in müdafiəsinə qoşulur...

■ səh. 5 ■

■ səh. 12 ■

Azərbaycanda yeni ictimai rəy - "Dəbdəbəli yas, toy ziyafətlərini postkorona dövründə də istəmirik..."



■ səh. 13 ■

Pandemiyadan zərər çəkmiş sahibkarlara vergi güzəşti - hələlik 114 milyon...



■ səh. 13 ■

Azərbaycanda daxili turizmin yeni mexanizmlərinə ciddi ehtiyac var - Pandemiya bu sahəni də dəyişir...



■ səh. 15 ■

Bakının Baş planının almanlara verilməsinə əsas reaksiyalar - "kiçik bir yolu dəfələrlə tikib-sökən yerli şirkətlərə..."



■ səh. 12 ■

Pandemiya ilə bağlı Azərbaycanda vətəndaşlara psixoloji yardım necə göstərilir...



## Prezident İlham Əliyev karantin rejimində deputatların hərəkətini tənzimləyən qanunu təsdiq etdi

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə AR Qanununu təsdiq edib.**

Sənədə əsasən, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" AR Qanununun 4-cü maddəsinə aşağıdakı məzmunda ikinci hissə əlavə edilir:

"Karantin rejiminin tətbiqi ilə əlaqədar ölkə ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlər deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilmir".

## Azərbaycanda koronavirusa 39 yeni yoluxma... Sağalanların sayı 1221-ə çatdı

**Azərbaycan Respublikasında 39 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 59 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 1717 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1221 nəfər müalicə olunaraq sağalıb, 22 nəfər vəfat edib, 474 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 15 nəfərin vəziyyəti ağır, 22 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 132.640 test aparılıb.

## İsveçdə 22 yaşlı azərbaycanlı tələbə koronavirusdan vəfat etdi

**İsveç Krallığının paytaxtı Stokholm şəhərində yaşayan 22 yaşlı soydaşımız Amin Etibar oğlu Salayev koronavirus pandemiyası səbəbindən vəfat edib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, İsveçdə fəaliyyət göstərən Azərbaycan diasporunun nümayəndələrindən alınan məlumata görə, artıq bir aydır COVID-19 virusundan müalicə alan gəncin son iki həftədə vəziyyəti daha da ağır olub.

Stokholmda yerləşən xəstəxanada bir neçə həftə müalicə alsa da, soydaşımızın həyatını xilas etmək mümkün olmayıb və gənc həmvətənimiz dünyasını dəyişib.

Qeyd edək ki, 1998-ci ildə İsraildə anadan olmuş, sonradan ailəsi ilə birlikdə İsveçə köçmüş A.Salayev 20 ilə yaxındır İsveçdə yaşayırdı. İsveç Texniki Universitetinin sonuncu kurs tələbəsi idi.

# Prezident İlham Əliyevlə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti arasında videokonfrans keçirilib



**Aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Prezident İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib.**

Videokonfransda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi və Azərbaycan tərəfindən İqtisadiyyat naziri, Avropa Yenidənqurma və İnkişaf Bankında Azərbaycandan müdir Mikayıl Cabbarov iştirak edib.

# Qubadlıdan məcburi köçkün Nəriman Həmidov: "Çıxışlarınızı izləyirik, cənab Prezident..."

**Prezident İlham Əliyevin rəhbərliyilə pandemiya dövründə ölkəmizdə həyata keçirilən tədbirlər və görülən işlərin müsbət nəticələri cəmiyyətin müxtəlif təbəqələri, o cümlədən də şəhid və Milli Qəhrəman ailələri tərəfindən təqdir edilir.**

Milli Qəhrəman atası, Qubadlı rayonundan məcburi köçkün Həmidov Nəriman Şükür oğlu Prezidentə bu barədə yazır: "Siz polad biləkli, geniş ürəkli, uzaqgörən bir sərkərdəsiniz. Bunu Sizin yüksək siyasi bacarığınız, həyata keçirdiyiniz qabaqlayıcı tədbirlər sübut edir. Məhz bu tədbirlər xalqımızı acı nəticələrdən qorudu. Sərhədlərin vaxtında bağlanması, lazımi tibbi avadanlıqların ölkəyə gətirilməsi, yeni açılan xəstəxananın xəstələrin istifadəsinə verilməsi az itki ilə vəziyyətdən çıxmağımıza xidmət etdi.

Xaricdə olan vətəndaşlarımızın ölkəyə gətirilməsi, tənha və aztəminatlı insanlara ayrılan diqqət Sizin hər bir azərbaycanlının Prezidenti olmağınızı sübut edir.

Çıxışlarınızı izləyirəm. Xalqımız Sizin və Mehriban xanımın açdığı yolla irəlilədikcə, xalqla dövlət arasında birlik də möhkəmlənir.

2018-ci ildə dekabrın 24-də Sizinlə görüş zamanı sadə, mehriban, qayğıkeş münasibətinizi xatırlayıram. Bu qayğını indi də çıxışlarınızda, çağırışlarınızda hiss edirik" - deyə bildirən Milli Qəhrəman gördüyü bütün tədbirlərə, işlərə görə ölkə başçısına minnətdarlıq edir, özünə və ailəsinə xoş arzularını çatdırır.

*Xəbər xidməti*

# Nizami rayonundan Rəcəb Rəfixanov Prezidentə "koronavirusa qarşı düzgün addımlar atmasaydınız"... yazaraq nəyi nəzərdə tutdu...



**Bütün dünyanın böhran keçirdiyi və pandemiyanın yaratdığı problemlərdən çıxış yolları axtardığı bir vaxtda Azərbaycan dövləti həyata keçirdiyi mübarizə tədbirləri, sosial-iqtisadi layihələrlə vətəndaşların yanında olduğunu bir daha göstərib.**

Bakının Nizami rayonundan Rəfixanov Rəcəb Alik oğlu ölkə başçısına müraciətində onun rəhbərliyilə həyata keçirilən tədbirlərin vətəndaş məmnunluğuna səbəb olduğunu yazır. "Ev sahibi evin dirəyi, arxa-dayağıdır deyirlər. Bizim ölkəmiz də daim əziz Prezidentimizin əməyi və qayğısı sayəsində inkişaf edir. Dünyada bütün baş verənlərə baxmayaraq, həm xalqın, həm də ayrı-ayrılıqda hər bir vətəndaşın probleminə bütün ruhu ilə özünü sərf edən belə məsuliyyətli və fədakar lider çox az tapılar. Bu gün fikrimcə, təkcə mən deyil, milyonlarla insan Sizə - hamımızın qayğısına qalan, ən müdrik, mərhəmətli və dünyanın ən uzaqgörən Prezidentinə təşəkkürünü bildirir".

R.Rəfixanov, həmçinin, yazır ki, dünyanı lərzəyə gətirən koronavirusla bağlı bu dərəcədə düzgün tədbirlər gördüyü üçün Prezident İlham Əliyevə təşəkkür edir. "Bu, Sizin bizə - Azərbaycan xalqına olduqca səmimi münasibətiniz barədə daha bir danılmaz faktdır" - deyə Nizami rayon sakini yazır.

R.Rəfixanov Prezidentin, sosial vəziyyətindən asılı olmayaraq, ölkənin hər bir sakininin vəziyyəti ilə maraqlandığı və bununla da hər kəsə ata qayğısı nümayiş etdirdiyini qeyd edir.

*Xəbər xidməti*

# Koronavirus dövründə xaricdə müvəqqəti qalmış vətəndaşlarımız və tələbələr üçün Azərbaycan nələr et(mə)di?...

**Koronavirusla mübarəzə tədbirləri çərçivəsində xarici ölkələrə getmiş və qayıda bilməyən Azərbaycan vətəndaşları da hökumətin diqqətindən kənarda qalmırlar. Yaranan məlum vəziyyətlə əlaqədar olaraq Türkiyədə təhsil alan azərbaycanlı tələbələr, bu ölkəyə turist kimi, yaxud səhhəti ilə bağlı müvəqqəti gələn və geri qayıda bilməyən Azərbaycan vətəndaşlarına yardım edilib.**

## *"Bu, dövlətimizin qüdrətinin göstəricisidir"*

Belə ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu günə qədər Azərbaycanın Türkiyədəki səfirliyi vasitəsilə 8 mindən çox vətəndaşımıza qida, yataqxana ilə bağlı dəstək, yardım göstərilib. Qısamüddətli gələn Azərbaycan vətəndaşlarının kirayə haqları da ödənilir. İndiyədək 1000-ə yaxın bu kateqoriyadan olan Azərbaycan vətəndaşına kirayə haqları ilə bağlı yardım edilib.

Bundan başqa, ərəb ölkələrində yaşayan soydaşlarımıza da dövlət dəstəyi göstərilib. Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində qalan vətəndaşlarımızın aprelin sonuna qədər ölkəyə qayıdacağı gözlənir. Koronavirus pandemiyası üzündən Dubaydan geri dönə bilməyən 75 azərbaycanlı kömək məqsədilə Diaspora İş üzrə Dövlət Komitəsinə müraciət edib, martın 26-dan bu günə qədər komitə onların otellərdə yerləşdirilməsini təmin edib və digər gündəlik iaşə xərclərini ödəyib.

Görünən odur ki, Azərbaycan dövləti, harada yaşamalarından asılı olmayaraq, bütün vətəndaşlarına sahib çıxır.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, bu, Azərbaycan dövlətinin qüdrətinin göstəricisidir: "Prezident İlham Əliyev başda olmaqla yeridilən siyasət xalqa xidmətə əsaslanır. Bu gün dünyada koronavirus pandemiyası tüğyan edir. Bir sıra dövlətlər bunun öhdəsindən gələ bilmir. Azərbaycanda görülən qabaqlayıcı tədbirlər sayəsində virusun kütləvi yayılmasının qarşısı alındı. Sözügedən tədbirlər görülməsəydi, bu, daha ciddi fəsadlara gətirib çıxaracaqdı. Bununla yanaşı, hökumət çoxsaylı sosial dəstək proqramı qəbul etdi. Bu məqsədlə 3 milyard manat büdcədən vəsait ayrılıb. Digər tərəfdən, xarici ölkələrdə qalan və geri qayıda bilməyən vətəndaşlar da qayğıdan kənardan qalmadılar. Onların kirayə, qida xərclərini dövlət öz üzərinə götürdü. Xarici ölkələrdəki səfirliklərimiz bütün bunları diqqət mərkəzində saxlayırlar. Bu onu göstərir ki, Azərbaycan dövləti, harada yaşamalarından asılı olmayaraq, bütün vətəndaşlarına sahib çıxır. Bu, dövlətimizin qüdrətinin göstəricisidir. Hesab edirəm ki, bu, qürurverici haldır".

***Seyid Camal Əzimbəyli:** "Azərbaycan dövləti, harada yaşamalarından asılı olmayaraq, bütün vətəndaşlarına sahib çıxır"*



***Vidadi ORDAHALLI***

# Göyçayın Bığır kəndindən Elton Məmmədovu dövlət başçısına məktub yazmağa məcbur edən səbəb...

**Koronavirus pandemiyasının dünya iqtisadiyyatına vurduğu zərər hələ tam olaraq hesablanmayıb. Virusdan iqtisadi zədə alan dövlətlərin başı xəstəliklə mübarizəyə qarışdığı üçün bu istiqamətə hələ diqqət yönəltmirlər.**

Azərbaycan dövlətini isə başqa dövlətlərdən fəqrləndirən cəhətlərdən biri pandemiya ilə mübarizə ilə paralel olaraq, iqtisadiyyatın, sahibkarlığın inkişafına da diqqət yetirməsi oldu.

Dövlət səviyyəsində pandemiya dövründə sahibkarlıq subyektlərinə dəyən zərərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlər, qəbul edilən proqramlar vətəndaşların müsbət reaksiyasına səbəb olub.

Göyçay rayonunun Bığır kəndindən Məmmədov Elton Həmdulla oğlu Prezidentə məktubunda bu məqamı önə çəkir. "Siz Ulu Öndərimiz Heydər Əliyevin uğurlu siyasətini əzmlə, böyük iradə ilə davam etdirərək, müstəqil Azərbaycanımızı gücləndirirsiniz. Ölkəmizin gələcəyinə həssas yanaşmağınız sayəsində pandemiyanın Azərbaycanda geniş yayılmasının qarşısını almaq üçün vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər artıq öz müsbət təsirini göstərməkdədir. Sizin siyasətinizin əsasında Azərbaycan xalqı və onun rifahı dayanır. "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2020-ci il 19 mart tarixli Sərəncamınızdan irəli gələn vəzifələrin həlli məqsədilə sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə verilmiş qərar biz valideynlər tərəfindən çox yüksək qiymətləndirilir".



**E.Məmmədov məktubunda qeyd edir ki, Prezident İlham Əliyevin pandemiya ilə mübarizədə göstərdiyi fədakarlıq tarixə qızıl hərflərlə yazılacaq. O, həmçinin, vətəndaşların taleyi ilə yaxından maraqlandığına, insanlara qayğı göstərdiyinə və hər bir zaman olduğu kimi, yenə də vətəndaşlarımızın rifahı naminə qərarlar verdiyinə görə ölkə başçısına öz təşəkkürünü bildirir.**

***Xəbər xidməti***

# Dünyada iqtisadi-ticarət əlaqələri qırılsa da, Azərbaycanda qeyri-neft sənayesində artım - Prezident müzakirəyə yeni rəqəm təqdim etdi

***Aydın Hüseynov:** "Görülən işlər sahibkarlığın inkişafını, eləcə də birbaşa rəqabət qabiliyyətli məhsulların istehsalını stimullaşdırır"*

**"Üç ayda Azərbaycanda qeyri-neft sənaye sahəsində artım 23 faizdir". Bunu Prezident İlham Əliyev Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışında deyib.**

Ölkə başçısının sözlərinə görə, artım əsasən yeni müəssisələrin hesabınadır: "Polimer və karbamid zavodları həm daxili tələbatı tam ödəyəcək, eyni zamanda, böyük ixrac imkanları yaranıb. Bu ixracın əhəmiyyəti ondadır ki, bu, qeyri-neft ixracıdır. Bizim də əsas məqsədimiz qeyri-neft sənayesini inkişaf etdirmək və qeyri-neft ixracını artırmaqdır. Bildirməliyəm ki, indi dünyada böhranlı vəziyyətdir, demək olar, ölkələr arasındakı iqtisadi əlaqələr müəyyən dərəcədə zədələnib və iqtisadi fəallıq bütün dünyada aşağı düşüb. Buna baxmayaraq, üç ayda Azərbaycanda qeyri-neft sənaye sahəsində artım 23%-dir. Bunun böyük hissəsi yeni yaradılmış sənaye müəssisələrinin hesabınadır. Beləliklə, biz bu müəssisələri yaratmaqla həm daxili tələbatı ödəyirik, idxaldan asılılığı aradan götürürük, həm də vətəndaşları işlə təmin edirik. Artıq Sumqayıtda minlərlə yeni iş yeri yaradılıb. Son illər ərzində Sumqayıtda bütün sənaye və infrastruktur obyektlərinin açılışlarında mən şəxsən iştirak etmişəm".

Göründüyü kimi, Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilir. Bunun nəticəsidir ki, müasir dövrün tələblərinə uyğun olaraq yeni sənaye müəssisələri inşa olunur.

Maraqlıdır, bəs ekspertlər bu tendensiyanı necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, bu ilin üç ayında qeyri-neft sənaye sahəsində qeydə alınan artım ölkə iqtisadiyyatındakı müsbət tendensiyalardan xəbər verir: "Bu onu göstərir ki, Azərbaycanda aparılan iqtisadi islahatlar, qanunvericilik bazasının möhkəmləndirilməsi və atılan digər mütərəqqi addımlar öz müsbət bəhrəsini verir. Görülən işlər sahibkarlığın inkişafını, eləcə də birbaşa rəqabətqabiliyyətli məhsulların istehsalını stimullaşdırır. Bunun nəticəsidir ki, qeyri-



neft sənaye sahəsində qeydə alınan artımın böyük hissəsi yeni yaradılmış sənaye müəssisələrinin hesabınadır. Ötən il ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilən nəticələr, cari ildə də bu müsbət meyllərin davam etməsi üçün əsaslı gözləntiləri formalaşdırıb. Görünən odur ki, makroiqtisadi göstəricilər ümumi inkişafın dinamikliyini səciyyələndirir. Ölkədə genişmiqyaslı islahatlar dayanmadan davam etdirilir.

Qeyri-neft iqtisadiyyatının bütün sektorlarının inkişaf etdirilməsi və ixracın genişləndirilməsi qarşıya mühüm məsələ kimi qoyulub. Dünyada koronavirusla əlaqədar böhranın müşahidə olunmasına baxmayaraq, Azərbaycanın qeyri-neft sənayesində artım var. Bu istiqamətdə görülən işlər ölkədə həyata keçirilən iqtisadi siyasətin düzgün olmasını sübut edir. Eyni zamanda, bu, qarşıdakı illərdə ölkə iqtisadiyyatında qeyri-neft sektorunun artacağını göstərir".

***Vidadi ORDAHALLI***

# Pandemiya ilə əlaqədar tək Əmək... Nazirliyi xətti ilə dəstək 5 milyona yaxın insanı əhatə edir - ölkənin yarısı...

***Rəsul Cahangirli:** "Həyata keçirilən dəstək proqramları əhalinin böyük hissəsini əhatə edir"*

**Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş amilinin dayanması pandemiya dövründə məşğulluğa və sosial rifaha dəstək yönümündə genişmiqyaslı tədbirlərlə bir daha təsdiqini tapır.**




Dövlətin indiki çətin dövrdə də öz vətəndaşının yanında olduğunun bariz nümunəsi olan bu tədbirlər, ilk növbədə, dövlət və özəl sektorda muzdla çalışan 1 milyon 640 minədək işçinin iş yerlərinin və əməkhaqqı gəlirlərinin qorunmasına imkan verdi. Sosial ödənişlərin davamlılığı təmin edilməklə, əsasən həssas qruplardan olan 2 milyon vətəndaşa sosial təminat növləri (pensiya, təqaüd, müavinət) üzrə ödənişlərin davamlılığı təmin edildi.

600 minədək aztəminatlı işsiz şəxsi əhatə edən birdəfəlik ödəmə proqramına, məşğulluq imkanlarının artırılması üçün 90 minədək şəxsin ödənişli ictimai işlərə cəlb olunmasına, özünüməşğulluq proqramı çərçivəsində minimum 12 min ailə kiçik təsərrüfatların qurulmasına başladı. 82 min ailənin 340 minədək üzvü ünvanlı dövlət sosial yardımı ilə, 20 minədək şəxsin işsizlikdən sığorta ödənişi, 100 minədək aztəminatlı ailənin ərzaq yardımı ilə təminatı işləri aparılır.

Beləliklə, pandemiya ilə əlaqədar təkcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən dəstək tədbirləri 4,8 milyondan çox vətəndaşı və ya ölkə əhalisinin 48 faizini əhatə edir.

Bütövlükdə, sözügedən dəstək proqramlarının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin fikrincə, həyata keçirilən dəstək proqramları əhalinin böyük hissəsini əhatə edir: "Bu da çox böyük sosial əhəmiyyətə malikdir. Martın 19-da Prezident İlham Əliyev sərəncam verdi və ölkənin yaranmış təhlükədən sığortalanması məqsədilə hökumət strukturları daxilində 4 işçi qrupu yaradıldı. Bunlar İqtisadiyyat Nazirliyinin, Mərkəzi Bankın, Maliyyə Nazirliyinin, bir də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdindədir. Onların hər biri öz istiqamətləri üzrə fəaliyyət göstərir. Məsələn, əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin təşkili ilə ƏƏSMN-in tərkibində yaradılan işçi qrupu məşğul olur. Onlar ilkin olaraq analiz etdilər ki, mövcud vəziyyətdən əhalinin hansı qrupu əziyyət çəkir, bunun qarşısını almaq üçün hansı tədbirlər görülməlidir və s. Bu yöndə görülən işlərdən sonra sözügedən məqsədlə böyük məbləğdə vəsait ayrılıb. Pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır. Əhalinin sosial rifahını qorumaq üçün digər mühüm addımlar çərçivəsində işsiz qalan şəxslərə dəstək mexanizmləri həyata keçirilir.

*"Bu, ölkədəki sosial siyasətin uğurudur"*

Bunlardan ən mühümü 190 manat məbləğində birdəfəlik ödəmənin həyata keçirilməsidir.

Prezidentin tapşırığı ilə birdəfəlik ödəmə 600 min şəxsə ödəniləcək və aprel-may aylarını əhatə edəcək. İki ay müddətində 190 manat birdəfəlik müavinət verilməsi üçün dövlət büdcəsindən əlavə olaraq 70 milyon manat vəsait ayrılıb. Karantin müddəti uzandığı halda birdəfəlik ödəmə - 190 manat növbəti aylarda da veriləcək. Görünən odur ki, məlum tədbirlər sayəsində tək ƏƏSMN xətti ilə yarım milyonadak insan sosial paketdən yararlanacaq. Əhalinin digər hissəsi isə başqa qurumların xətti ilə bu imkandan faydalanacaq. Bu, ölkədəki sosial siyasətin uğurudur".

***Vidadi ORDAHALLI***

# Köhnə məmur korpusundan qalanların İsmayıllıda yeni başçıya qarşı demarşları, ya...

## *Samir Adıgözəlli: "Ola bilər ki, elə rayondakı neqativliklərin üstü məhz yeni icra başçısının köməyi ilə açılıb"*

**Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğun Mətbuat xidmətləri İsmayıllı rayon icra hakimiyyəti başçısının İsmayıllı şəhəri üzrə icra nümayəndəsi Məhərrəm Əhmədovun qanunsuz hərəkətləri barədə birgə məlumat yayıb. Bildirilir ki, daxil olmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.**




Aparılmış tədbirlərlə Məhərrəm Əhmədov tərəfindən qanunsuz ödənişlər qarşılığında "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Nazirlər Kabinetinin 2 aprel 2020-ci il tarixli 124 nömrəli Qərarına zidd olaraq rayon ərazisində hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə, eləcə də müvafiq kateqoriyalara aidiyyəti olmayan digər fiziki şəxslərə işləmələri barədə icazə.e-gov.az portalında qeydiyyatdan keçməyən arayışların verilməsi, habelə aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının mənimsənilməsinə dair əsaslı şübhələr müəyyən edilib. Şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasına və Məhərrəm Əhmədovun rayonun Mican kəndində yerləşən yaşadığı evə baxış keçirilərək müxtəlif fiziki şəxslərə məxsus plastik bank kartları aşkar edilib və müəyyən olunub ki, sonuncu öz yaxın qohumlarının adlarına formal olaraq rəsmiləşdirməklə müxtəlif sayda plastik bank kartlarının alınmasına nail olub, bu yolla ümumilikdə 2016-2020-ci illər ərzində 12.400 manat məbləğində vəsaiti qanunsuz olaraq mənimsəyib. Bununla yanaşı, baxış zamanı nağd pul, ayrı-ayrı şəxslərin adlarına guya işləmələri barədə verilmiş qanunsuz arayışlar və onlara dair qeydlər, habelə aztəminatlı ailələrə yardım məqsədilə nəzərdə tutulmuş ərzaq bağlamaları və digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilərək götürülüb. İstintaq zamanı toplanmış ilkin sübutlar əsasında fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanıb, M.Əhmədov şübhəli şəxs qismində tutulub. Qeyd edək ki, bu hadisə ilə bağlı sosial şəbəkələrdə birmənalı münasibət bildirilməyib. Bəllidir ki, DTX digər rayonlarda da analoji əməliyyatlar aparıb, hətta daha yüksək vəzifəli şəxsləri həbs edib. Məhz rayon icra hakimiyyətlərində baş verən neqativliklərin fonunda Prezident bəzi rayonlara gənc icra başçılarını göndərdi. Belə rayonlardan biri də İsmayıllıdır. Sonuncu neqativliyin məhz İsmayıllıda baş verməsi müxtəlif sualların yaranmasına səbəb olur: gənc icra başçısı neqativliklərin öhdəsindən gələ bilmir, yoxsa köhnə məmur korpusu islahatları sabotaj edərək gənclərə işləməyə imkan vermir?

İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yayılan məlumata müxtəlif aspektlərdən yanaşmaq olar:"Birincisi, belə hadisənin Prezidentin yeni təyin etdiyi gənc icra başçısının rəhbərlik etdiyi rayonda baş verməsi önə çəkilir. Çünki ölkə başçısı onu qəbul edərkən konkret tövsiyələrini vermişdi. Mən inanmıram ki, bu neqativliklərə gənc icra başçısı şərik olsun və ya göz yumsun. Büdcə pullarının necə mənimsənildiyini biz DTX-nın bundan əvvəl keçirdiyi əməliyyatlarında açıq gördük. Bu məsələdə vəziyyət fərqlidir. Ola bilər ki, elə rayondakı neqativliklərin üstü məhz yeni icra başçısının köməyilə açılıb. İsmayılıda baş verən hadisədə icra başçısının fəaliyyətini tənqid edənlər əsasən ona bugünlərdə töhmətin verilməsi arasında paralel aparırlar.

Bu hadisələr arasında heç bir rabitə görmürəm. Həmin vaxt icra başçısının etdiyi hərəkət inzibati pozuntu idi. Rayonun turizm imkanlarını müzakirə etmək üçün karantin qaydasını pozmuşdu. Burada isə söhbət köhnə komandadan qalmış məmurun etdiyi cinayətdən gedir. Mən güman edirəm ki, bir çox rayonlarda belə hallar mövcuddur. Bu cür korrupsiya əməlləri mütəşəkkil qaydada törədilir. Görünür, yeni icra başçısı fəaliyyəti şəffaf görmək üçün belə həbslərin reallaşmasına köməklik göstərib. Bu məsələdə islahatları qəbul etməyən bəzi yerli məmurların müqavimət addımları hiss edilir. Korrupsiya əməllərinin qarşısının alınmasının yolu məhz bu cür sərt tədbirlərdən keçir".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ Konqresində milli maraqlar üzərinə növbəti erməni yürüşü - 30 senator qondarma "DQR"in müdafiəsinə qoşulur...

**ABŞ-da yenidən Dağlıq Qarabağda olan separatçı rejimə maliyyə yardımı olunması məsələsi gündəmə gəlib. Erməni KİV-nin verdiyi məlumata görə, bu barədə xəbəri ABŞ-dakı erməni milli komitəsi verib. Bildirilir ki, "DQR"-ə yardımın edilməsi ilə bağlı tələb təşəbbüsünü irəli sürən Nümayəndələr Palatasının 75 üzvünə daha 30 senator da qoşulub.**



Onlar tələb edirlər ki, 2021-ci ildə "DQR"dəki ərazilərin minalardan təmizlənməsi və zəruri reabilitasiya üçün ABŞ hökuməti yardım paketinin həcmini artırmalıdır. Robert Menendes adlı senatorun yazdığı məktubda o, istənilən yardımın məbləğini 1,5 milyon həcmində göstərir. Senatorların bu tələbini nə dərəcədə qanuni saymaq olar?

Araşdırmalarımız göstərir ki, son aylarda erməni lobbi təşkilatları və bəzi ermənipərəst konqresmenlərin fəallığına baxmayaraq, ABŞ-dan Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindəki separatçılara maddi dəstək təmin etmək mümkün olmayıb. Hətta Donald Tramp administrasiyası Qarabağı minalardan təmizlənmə proqramı üçün maliyyə resursları ayırmağı dayandırmaq qərarına gəlib. Qeyd edək ki, ABŞ müstəqilliyini tanımadığı Qarabağa birbaşa maliyyə yardımı göstərən yeganə dövlət idi. Ermənistan Azərbaycanın inzibati ərazisi olan Dağlıq Qarabağda "90-cı illərin əvvəllərindən çoxlu sayda minalar qalıb, bu da yerli əhalinin həyatını və təhlükəsizliyini təhdid edir" bəhanəsi ilə 1998-ci ildən ümumilikdə yüz milyonlarla yardım əldə edib. Yardımın alınmasının ilkin illərində bu maliyyə Azərbaycanın inzibati ərazisi olan Dağlıq Qarabağda minadan təmizlənməyə sərf olunurdusa, 2003-cü ildən sonra bu maliyyə məhz DQ ətraf rayonlarında, xüsusilə Laçın və Kəlbəcər rayonlarında minadan təmizlənməyə sərf olundu. Ardınca isə minadan təmizlənmiş ərazilərə Suriyadan köçürülmüş erməni əhalisi qanunsuz olaraq yerləşdirildi. Bir sözlə, insanların təhlükəsizliyi üçün mühüm və zəruri humanitar təşəbbüs olan "Minalardan təmizlənmə proqramı" işğalçı dövlətin işğal etdiyi ərazilərdə qanunsuz məskunlaşma siyasətinin həyata keçirilməsi üçün istifadə edilirdi. İnternet üzərindən apardığımız araşdırmalar göstərir ki, Azərbaycanın Dağlıq Qarabağ inzibati ərazisində minaların təmizlənməsi ilə Britaniyanın humanitar minatəmizləmə təşkilatı olan "HALO Trust" məşğul olub. 2017-ci ildə təşkilat Azərbaycanın Dağlıq Qarabağa aid inzibati ərazisinin 88 faizini minalardan təmizlədiyini bəyan etdi. Minaların təmizlənməsi proqramının əsas donoru ABŞ hökumət agentliyi USAİD-dir və proqram ABŞ Konqresinin Dağlıq Qarabağ separatçılarına hər il ayırdığı maddi yardımlar çərçivəsində həyata keçirilirdi. Qeyd edək ki, 1998-ci ildən etibarən ABŞ Konqresi Dağlıq Qarabağ ermənilərinə bu proqram çərçivəsində birbaşa yardım ayırır. Ən iri yardım - 12 milyon dollar 1998-ci ildə ayrılıb. Sonradan bu yardımların həcmi ildən-ilə azaldıldı, bu il isə dayandırıldı. Rəsmi Bakı daima öz ərazisində minalardan təmizlənmə adı ilə separatçılara vəsait ayrılmasına etirazını bildirib. Ən sonuncu məqamlarda bu maliyyələşməni erməni fondları və ABŞ Konqresi edib. ABŞ administrasiyasının işğal altındakı Qarabağ ərazisində minaların təmizlənməsi üzrə dəstəyini dayandırması ABŞ-dakı erməni lobbisini ciddi narahat edir. Bu səbəbdən də belə geniş kampanyaya start veriblər.

**Məlumdur ki, həm Konqresdə, həm də Senatda birbaşa ABŞ-dakı erməni lobbisinin təsiri altında olan nümayəndələr var. Onların bu canfəşanlığı heç də maliyyənin ayrılacağı anlamına gəlmir. Çünki bu layihənin həyata keçməsi ABŞ-ın dolayı yolla separatçılara maliyyə yardımı etməsi anlamına gəlir ki, bu da həmsədr ölkə olaraq rəsmi Vaşinqtonun neytrallığını şübhə altına salır. Azərbaycanın bütün vasitələrlə bu təşəbbüslərə etiraz etməsi lazımdır. Bizim ərazimizdə hər hansı layihənin həyata keçirilməsi yalnız Azərbaycan dövlətinin icazəsi ilə baş tuta bilər.**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın "bolşevik işğalı" - Qarabağ problemi tarixində yeni "erməniçilik" mərhələsi...

**1920-ci ilin 28 aprel işğalından 100 il ötür. Bu 100 ilin 70 ilini Azərbaycan SSRİ deyilən imperiyanın boyunduruğu altında yaşamağa məhkum olunub. Bolşevik Rusiyasının işğalı nəticəsində Azərbaycan dövləti müstəqilliyini itirməklə yanaşı, həm də saysız itkilə üzləşib.**

***Vaqif Abışov:** ”...ərazilərinin bir hissəsini Ermənistanın xeyrinə itirmiş oldu”*

***Faiq Ələkbərli:** ”Dağlıq Qarabağ kimi daha ciddi bir problem də Azərbaycanı işğal etmiş Bolşevik Rusiyası dövründə formalaşdı”*

Azərbaycan torpaqlarına, xüsusən də Dağlıq Qarabağa ermənilərin açıq-aşkar iddialar irəli sürməsi ilə bağlı məsələlər də məhz bu dövrdə alovlanıb, daha böyük "yanğınlara" səbəb olub.

Bolşevik hökumətində yaxından təmsil olunan erməni daşnakları, ideoloqları Azərbaycan torpaqlarının parçalanaraq ermənilərə verilməsi yönündə təbliğat aparır, məqamı çatanda isə açıq şəkildə "Dağlıq Qarabağı ermənilərə verməlisiniz" iddiasını ortaya qoyurdular.

Məlumatlara görə, 1920-ci il dekabrın 1-də Azərbaycanın Zəngəzur mahalının böyük hissəsi Moskva rəhbərliyinin qərarı ilə Ermənistana verilir. 1923-cü il 7 iyulda Moskva rəhbərliyinin qərarı ilə Dağlıq Qarabağa muxtar vilayət statusu verilir. 1923-cü il 18 sentyabrda Xankəndinin adı "Stepanakert" adlandırılır. 1929-cu il 18 fevralda Moskva rəhbərliyinin qərarı ilə Azərbaycana məxsus olan 657 kv.km ərazi - Qurdbulaq, Horadiz, Oğbun, Almalı, İtqıran, Sultanbəy, Qarısevən, Kilid və digər kəndlər, həmçinin, Zəngilan rayonunun Nüvədi kəndi, Qazax rayonunun 4400 hektarlıq meşə sahəsi Ermənistana verilir.

Qeyd edilənə görə, 1930-cu ildə Moskva rəhbərliyinin qərarı ilə Naxçıvanın Əldərə, Lehvaz, Astazur və başqa yaşayış məntəqələri Ermənistana verilir və bu ərazilər üzrə Mehri rayonu yaradılır. 1938-ci ildə Moskva rəhbərliyinin qərarı ilə Naxçıvanın Sədərək və Kərki kəndlərinin bir hissəsi Ermənistana verilir.

Qeyd edilənə görə, 28 noyabr 1945-ci ildə Ermənistan rəhbəri Harri Arutinov Stalinə müraciət edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini xahiş edir. 1947-1953-cü illərdə Ermənistanda toplum şəkildə yaşayan 150 min nəfərdən artıq azərbaycanlı SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycana köçürülür. 1965-ci ildə Xankəndində yaşayan M.Hovenesyan 13 nəfər erməninin imzası ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi xahişi ilə məktubu SSRİ Ali Sovetinə göndərir. 1967-ci ilin iyun-avqust aylarında Dağlıq Qarabağın Xocavənd rayonunun Kuropatkin kəndində erməni Benikin uşağı yoxa çıxır, sonra isə onun meyiti Ələmşah Mustafayevin briqadasına məxsus olan sahədən tapılır. Bu hadisəyə görə briqadir Ələmşah, direktor Ərşad, kənd sakini Zöhrab həbs olunurlar. Bu şəxslərin günahı sübut olunmadığına görə məhkəmə işi yenidən istintaqa qaytarılır. Lakin ermənilər yolda həbsxana maşınını saxladır, onu çevirir, hər üç nəfəri öldürür, sonra da yandırırlar. Az sonra sübut olunur ki, uşağı öz dayısı öldürüb.

1969-cu ildə Xankəndidə "Qarabağ" mehmanxanasının eyvanından qumbara atılır, üç azərbaycanlı yaralanır.

1969-cu ildə Laçın rayonunun Qaragöl ərazisinin, Qubadlı rayonunun Çayzəmi ərazilərinin, Qazax rayonunun Kəmərli kənd ərazilərinin, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazilərinin bir hissəsi Moskva rəhbərliyinin qərarı ilə Ermənistana verilir.

1982-ci ildə Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli, Qaymaqlı kəndləri ərazilərinin bir hissəsi Ermənistana verilir.

1985-ci ilin dekabr ayında "Daşnaksütyun" partiyasının Afinada keçirilən XXII qurultayı "Böyük Ermənistan" uğrunda mübarizəni genişləndirmək qərarını qəbul edir.

1986-cı ildə Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun 2500 hektarlıq ərazisi Ermənistana verilir.

1987-ci ildə akademik Abel Aqanbekyanın təkidilə Parisdə keçirilən erməni ümummilli konqresi SSRİ-də yaranmaqda olan dəyişikliklərdən istifadə edərək, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi yönündə addımlar atılması barədə qərar qəbul edir.

1987-ci ilin iyun-iyul aylarında ermənilər Xankəndinin küçələrində vərəqələr yayır, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başlayırlar. 1987-ci ilin oktyabr ayında İrəvanda "Qarabağ komitəsi" ilk açıq mitinq keçirir. Komitəyə İqor Muradyan və Levon Ter-Petrosyan başçılıq edirlər.

1987-ci il noyabrın 16-də Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Parisdə qəzetlərə müsahibə verərək, Dağlıq Qarabağın Ermənistana verilməsi ilə əlaqədar Qorbaçovu razı saldığını bildirir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov bizimlə söhbətində başımıza gələn bəlaların çoxunun Bolşevik Rusiyası dövründə inkişaf etdiyini qeyd edir. Dağlıq Qarabağ probleminin meydana çıxmasına, ermənilərin Azərbaycan ərazilərinə qarşı iddialarla çıxış etməsinə həmin dövrdə daha çox şərait yaradılıb. "Düz 100 il bundan əvvəl - 1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə sovet-rus qoşunları Şimali Azərbaycan torpağına hərbi təcavüz edərək onu işğal ediblər. Bu işğal nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti süqut etdi. Onun yerinə rus süngüsü ilə Azərbaycan SSR adlı bir dövlət quruldu. Bu dövlətin mövcudluğu 1920-1991-ci illəri əhatə edir. Bax, bu illərdə Azərbaycan Qarabağ, Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz və s. bölgələrindəki ərazilərinin bir hissəsini Ermənistanın xeyrinə itirmiş oldu. Ermənilərin xeyrinə Dağlıq Qarabağ muxtar vilayəti yaradıldı. Sonrakı mərhələdə isə nəinki Dağlıq Qarabağ, eləcə də Qarabağımızın digər əraziləri itirildi. Bax, budur aprel işğalının nəticəsi. Aprel işğalından 100 il keçməsinə baxmayaraq, xalqımız o müdhiş hadisəni unutmayacaq" - deyə tarixçi vurğuladı.

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli də həmkarının fikirlərini bölüşür. "Şübhəsiz ki, 28 aprel iyirminci əsrdə Azərbaycan xalqının tarixində ən qara günlərdən biridir. 28 aprel işğalı nəticəsində təkcə milli dövlətimiz süqut etmədi, eyni zamanda, Azərbaycan xalqına çox ağır zərbələr dəydi. Bu zərbələrdən biri də məhz torpaqlarımızın xeyli bir qisminin Ermənistan SSR-ə, bir qisminin Gürcüstana verilməsi, Rusiya ərazisinə daxil edilməsidir. 28 aprel işğalının bizə gətirdiyi ən böyük faciə torpaqlarımızın bizdən alınaraq haylara verilməsi məsələsi oldu. Üstəlik, Azərbaycanın Zəngəzurun böyük bir hissəsini itirməsi, Borçalı torpaqlarının Gürcüstan ərazisində, Dərbənd və digər ərazilərimizin Rusiya ərazisində qalması bir yana, Dağlıq Qarabağ kimi daha ciddi bir problem də Azərbaycanı işğal etmiş Bolşevik Rusiyası dövründə formalaşdı. Əlbəttə, ermənilərin 28 aprel işğalına qədər də, bildiyimiz kimi, Qarabağa iddiaları var idi. Ancaq Azərbaycan Xalq Cümhuriyyəti həmin dövrdə ermənilərin layiqli cavabını verərək onları yerində oturda bilmişdi. Ancaq aprel işğalından sonra vəziyyət xeyli dərəcədə dəyişməyə başladı. Birmənalı demək olar ki, xüsusilə Azərbaycan Xalq Cümhuriyyətinin Bolşevik Rusiyasının XI qırmızı ordusu tərəfindən işğal edilməsindən daha çox ermənilər və Ermənistan SSR yararlandı. Belə ki, 1920-ci ilin 29 noyabrında Ermənistan sovetləşəndən sonra onların Naxçıvan, Zəngəzur və Qarabağa olan iddiaları daha da gücləndi. Buna, ilk növbədə, 1920-ci il dekabrın 2-də RSFSR ilə Ermənistan SSR arasında bağlanmış müqavilə səbəb oldu. Həmin müqavilənin 3-cü maddəsində göstərilir ki, Rusiya-Sovet hökuməti Ermənistanın 1920-ci il oktyabrın 23-nə kimi "sahib olduğu" aşağıdakı ərazilərini, yəni İrəvan Quberniyasının, Qars vilayəti hissəsinin, Zəngəzur qəzasının, Qazax qəzası hissəsinin, Tiflis quberniyası hissəsinin Sovet erməni respublikasının tərkibinə daxil olduğunu mübahisəsiz təsdiq edir. Maraqlıdır, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin siyasi və təşkilat bürolarının 1920-ci il 30 noyabr tarixində birgə iclasında da təxminən buna uyğun qərar qəbul edilmişdi. Qərarda Zəngəzur, Qarabağın dağlıq hissəsi haqqında məsələyə də toxunulub və bəyannaməni elan etmək Nəriman Nərimanova tapşırılmışdı. 7 cildlik "Azərbaycan tarixi"nin 6-cı cildində bununla bağlı yazılır: "Nəriman Nərimanovun çıxışında da, 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında onun elan etdiyi bəyannamədə də Naxçıvan haqqında məsələ qaldırılmayıb. Lakin ertəsi gün qəzetlərdə dərc olunmuş bəyannaməyə aşağıdakı fikirlər əlavə edilmişdi: "Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının "ayrılmaz hissəsidir". Nərimanovun imzası ilə dərc olunmuş bəyannamədən sonra ermənilər Zəngəzurun Ermənistana birləşdirilməsini sürətləndirdilər. Zəngəzurda Ermənistana bağlı Mehri rayonunun yaranması ilə Naxçıvan Azərbaycandan ayrı salındı".

Yeni, gördüyümüz kimi, məncə, Nərimanovun əvvəlcədən xəbəri olmadan onun imzası altında bu sözlərin yazılması ilə bizim torpaqların bir hissəsinin itirilməsi baş verdi..." - deyə F.Ələkbərli vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Son dövrlərdə postsovet məkanında Ermənistanın ciddi problem yaşadığı ölkələrdən biri qismində Ukraynanın çıxış etməsi müşahidə olunur. Məsələnin maraqlı tərəflərindən biri də odur ki, baş verənlərə görə İrəvanda Ankara və Bakını günahkar çıxarmağa çalışırlar.**

# Azərbaycan Ukraynada Ermənistanın dayaqlarını tam sarsıdır - İrəvanın saxta "soyqırım" strategiyası burada da iflasa uğradı

Burada hesab edilir ki, Ukrayna Azərbaycan və Türkiyə ilə əməkdaşlığı dərinləşdirməyə çalışdığı üçün Ermənistanı arxa plana atıb onun mövqeyinə qarşı siyasət aparır.

Xatırladaq ki, məsələ ətrafında erməni isterikası 24 apreldə qondarma "erməni soyqırımı" məsələsi fonunda özünü qabarıq büruzə verdi. Belə ki, Kiyevdə bu qondarma məsələ ilə bağlı obyektiv bir mövqe sərgiləndi. Burada qeyd etmək yerinə düşərdi ki, hələ ötən ay hakim "Xalqın xidmətçisi" partiyasının deputatı, Ali Radanın Ukrayna-Ermənistan dostluq qrupunun sədr müavini Darya Volodina qanunverici orqana "erməni soyqırımı qurbanlarının anılması" ilə bağlı qanun layihəsi təqdim etdi, lakin layihə geri qaytarıldı. Martın 26-da isə Ukrayna xarici işlər nazirinin müavini Vasili Bodnar vəzifəli şəxslərə məktub ünvanlayaraq, "erməni soyqırımı" ifadəsini işlətməkdən imtina etməyə dəvət etdi. Bodnar məktubunda qeyd edirdi ki, Ukrayna rəsmi şəkildə bu qondarma "soyqırımı" tanımır. O bu xüsusda bildirirdi:"Ermənistan Rusiyanın nüfuz dairəsindədir və beynəlxalq təşkilatlarda Ukrayna üçün əhəmiyyətli qətnamələrin əleyhinə səs verir. "Erməni soyqırımı" məsələsi Ukraynanın strateji tərəfdaşı olan Türkiyə üçün həssas mövzudur və bu məsələni yalnız tarixçilər həll etməlidir". Məhz bütün bunlar Ermənistanda ciddi narahatlıq yaratdı. Eyni zamanda etiraf edildi ki, artıq Ukrayna erməni diasporunun güclü olduğu ölkə deyil. Bundan sonra Ermənistanda "Ukraynaya ölüm" tipli çağırışlar eşidilməyə başlandı. Artik şəhərinin iqtisadi inkişaf üzrə vitse-meri Boris Avakyan "Krımı Rusiyanın suveren ərazisi kimi tanıyaq" çağırışı etdi və bunun üçün parlamentin xarici əlaqələr üzrə daimi komissiyasına, eləcə də xarici işlər naziri Zöhrab Mnatsakanyana müraciət ünvanladı. Ermənistan mediası isə Ukraynanı Azərbaycan mövqelərini müdafiə etməkdə, pantürkçülükdə ittiham edir. Burada xatırladaq ki, Bakının Kiyevdə erməni diasporunu sıxışdırması prosesi son iki ildə xüsusilə hiss olunur. Azərbaycan iki ölkə arasındakı əlaqələrin inkişafı, investisiyaların yatırılması, Ukraynanın enerji də daxil olmaqla müxtəlif sektorlarında bazara hakim olmaq, uzun müddət bu ölkədə yaşayan nüfuzlu azərbaycanlıların önə çəkilməsi və digər addımlarla ermənilərin mövqeyini əhəmiyyətli dərəcədə zəiflədib. Bu vəziyyətdə ermənilərin daha bir qorxusu Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili amili ilə bağlıdır. Qeyd edək ki, Ukrayna prezidenti Vladimir Zelenski Mixail Saakaşviliyə Baş nazirin islahatlar üzrə müavini postunu təklif edib. Ermənilər bildirir ki, Saakaşvilinin gəlişi Ukrayna hakimiyyətində təsir imkanlarını son beş ildə həddən artıq genişləndirmiş Arsen Avakovun sıradan çıxmasına səbəb olacaq. Xatırladaq ki, keçmiş prezident Pyotr Poroşenkonun dönəmindən Saakaşvili ilə erməni əsilli Arsen Avakov arasında ziddiyyət yaşanır. Erməni mediası yazır ki, Azərbaycan da Saakaşviliyə tam dəstək verir. Ermənilər indi Ukraynada baş verənləri Türkiyə-Azərbaycan-Ukrayna əməkdaşlığının bəhrəsi adlandırırlar. İrəvanlı politoloqlar düşünürlər ki, türklərin və azərbaycanlıların apardığı təbliğat sayəsində ukraynalılar onlarla yola getmir. Belə vəziyyətdə ermənilər Ukrayna dövlətinin daxili işinə qarışmağı düşünürlər. Bunun üçün Ermənistan hökumətinə və Ukraynadakı erməni diasporuna müraciət ünvanlayaraq hərəkətə keçməyə təhrik edirlər. Erməni ekspert Qraçya Qalustyan bu xüsusda bildirir:"Aydındır ki, vəziyyət ölkəmizin rəhbərliyinin şəxsi müdaxiləsini tələb edir. Xalça üzərinə Ukraynanın Ermənistandakı səfirini çağırmağın vaxtı gəlib. Ona izah edilməlidir ki, karantin öz yerində, amma bütün bu proses dayanmasa, Kiyevə qayıtmalı olacaq. Həm də ölkəmizin xarici işlər naziri çoxdan ukraynalı həmkarına zəng etməli idi. Əlbəttə ki, Zelenskiyə Nikol Paşinyan zəng vurmalı idi. Daha indi də olmasa, başqa nə vaxt zəng edilməlidir?!". Qalustyan deyir ki, ölkəsinin rəhbərliyi, Ukraynadakı nüfuzlu erməni diasporu Arsen Avakovu müdafiə etməyə borcludur:"Xalqımızın və ölkəmizin öz milli və dövlət maraqları var. Onları Vladimir Zelenski və onun "xidmətçilərinə" xatırlatmağın vaxtı çatıb. Bu işdə gecikmək olmaz. Çünki Türkiyə və Azərbaycan artıq Ukraynanın bütün bölgələrində antierməni təbliğatını aparmaq üçün bütün gücləri ilə işləyirlər".



Aprelin 30-da Saakaşvilinin baş nazirin müavini postuna təyin edilib-edilmədiyi məlum olacaq. Ermənilər bu günü təşviş və həyəcanla gözləyirlər. Çox güman ki, Saakaşvili istəyinə çatacaq və bundan sonra mafioz Arsen Avakovun işləri xeyli çətinləşəcək. Hələ onun nazir vəzifəsində qalması da şübhəlidir. Ermənilər bu fonda yorulmadan iddia edirlər ki, Azərbaycan Saakaşviliyə dəstək verməklə yanaşı, Ukrayna üzərində təsirini də artırır. Ali Radanın deputatı Maryan Zabolotski də bildirir ki, Azərbaycan Ukraynadan dəstəyini əsirgəmir:

**"Hakimiyyət nümayəndələri ilə görüşdə prezident Zelenski dedi ki, Azərbaycan və Kanada ölkəyə kredit yardımı ayırmağa razılıq verən dövlətlərdir. Bakı 300 milyon dollar kredit verməyə razıdır. Bu məbləğ Azərbaycan üçün elə də böyük vəsait deyil. Bizə bu çətin dövrdə uzadılan hər yardım əli çox dəyərlidir". Hesab edilir ki, bu çətin dövrdə Ukraynaya kreditin ayrılması Azərbaycanın uzunmüddətli strategiyasının tərkib hissəsidir və indiyə qədər uğurlu nəticə verən bu addımların gətirdiyi siyasi dividendlərin davamı olacaq.**

***Nahid SALAYEV***

**Ermənistan Siyasi-İqtisadi Tədqiqatlar İnstitutunun direktoru Andranik Tevanyan "İqtisadiyyatımızda eyni zamanda böyümə və eniş" adlı yazısında öz ölkəsindəki bir sıra məqamlara toxunub. Bununla yanaşı, o, Azərbaycandakı inkişafı etiraf edib:**

# Ermənistan Siyasi-İqtisadi Tədqiqatlar İnstitutunun direktorunun böyük etirafı - Azərbaycan böyüyür, bizi "ucuz şoularla"...

## *Arzuxan Əlizadə: "Görünən odur ki, Ermənistanda bununla bağlı daha ciddi narahatlıqlar var"*



"Böhran hamımızın qapısını döyür, koronavirusun yayılma tempi ciddi narahatlığa səbəb olur, Azərbaycan sürətlə inkişaf edir, Ermənistan-Rusiya münasibətləri tarixi enmə nöqtəsinə düşdü. Daxildə isə bizi arsız şəkildə əmlakı bölüşdürməklə, siyasi təqiblə və ucuz şoularla "qidalandırırlar". Tikinti sektorunda (bu ilin ilk üç ayında əvvəlki ilə nisbətən 9,4% azalma müşahidə olunur) və xarici ticarətdə (4% azalma) vəziyyət bir qədər pisdir, lakin makro göstəricilərə təsir etməyib.

Elə bənzəyir ki, biz cənnətin açarını bu koronavirus şəraitində tapmışıq, ancaq Dövlət Statistika Komitəsi tərəfindən təqdim olunan digər göstəricilər vəziyyətin çox əlverişli olmadığını, ancaq makroiqtisadi meyllərin mənfi istiqamətdə olduğunu göstərir. Beləliklə, bu ilin mart ayında ötən ilin mart ayı ilə müqayisədə iqtisadi aktivlik indeksində 4.9% azalma var. Ötən ilin eyni dövrü ilə müqayisədə sənaye istehsalı 1,9%, tikinti həcmi 26,2%, ticarət dövriyyəsi 9,9%, xidmətlər (ticarət xaric) 4.8%, elektrik enerjisi istehsalı 1%, xarici ticarət 16%, ixrac 17.4% azalıb. Bu mart ayını fevral ilə müqayisə etdikdə meyllər əsasən pisdir. Fevral ayı ilə müqayisədə ənənəvi olaraq mart ayında həmişə böyümə müşahidə edilir. Ancaq bu il belə deyil. Mart ayında iqtisadi fəaliyyət indeksi fevral ayından aşağıdır".

A.Tevanyanın təhlilindən o da məlum olub ki, bu ilin aprel ayının ötən ilin aprel və bu ilin mart aylarına nisbətən daha pis makroiqtisadi mənzərə nümayiş etdirəcəyini proqnozlaşdırmaq olar.

Görünən odur ki, Ermənistanın bəzi dairələri Azərbaycanın inkişaf etməsini etiraf etmək məcburiyyətində qalıblar.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP-in sədr əvəzi Arzuxan Əlizadə buna bir neçə aspektdən yanaşdı: "Son zamanlar davamlı olaraq ayrı-ayrı iqtisadçılar tərəfindən postpandemiya dövründə dünya iqtisadiyyatını gözləyən təlatümlər və bunun ölkələrə hansı mənfi təsirlər göstərə biləcəyi barədə narahatlıqlar ifadə olunmaqdadır. Görünən odur ki, Ermənistanda bununla bağlı daha ciddi narahatlıqlar var. Şübhə etmirəm ki, deyilənlər əsassız da deyil. Bilirik ki, Ermənistan özünü təmin edəcək səviyyədə təbii resursları olmayan, zəif inkişaf etmiş iqtisadiyyata malik və daha çox xarici yardımlardan asılı bir dövlətdir. Aydındır ki, qlobal maliyyə böhranının Ermənistana bilavasitə təsir göstərməsi bu ölkənin iqtisadiyyatının sürətlə məhvə doğru apara bilər. Bu səbəbdən də məsələyə ayıq başla yanaşan erməni mütəxəssisləri Ermənistanın kənardan kömək olmadan dövlət kimi mövcudluğunu davam etdirməsinin mümkünsüzlüyünün fərqində olaraq, bunu açıq şəkildə dilə gətirməyə başlayıblar. Mən mətbuatdan A.Tevanyanın bu məsələ ilə əlaqədar fikirləri ilə tanışam. O, Azərbaycanın sürətlə inkişafından və bu əsnada Ermənistanın hazırda apardığı siyasət nəticəsində Rusiya ilə münasibətlərinin pisləşməsindən ciddi narahatlığını ifadə edib. Əlbəttə, Ermənistanın dövlət olaraq mövcudluğuna görə Rusiyaya borclu olduğu heç kimə sirr deyil".

### *"Regionda və düşmən dövlətdə yaranmış mövcud vəziyyət ciddi təhlil olunmalıdır"*

A.Əlizadənin fikrincə, üzdəniraq qonşumuz regionda Rusiyanın forpostu olmaqla yanaşı, iqtisadiyyatı da demək olar ki, bu ölkədən asılı bir durumdadır: "Ona görə də erməni mətbuatında pandemiyadan sonrakı dövrdə dünya iqtisadiyyatında yarana biləcək böhran və hər bir ölkənin daha çox öz iqtisadiyyatını ayaqda saxlamağa çalışacağı durumda Ermənistanın həm iqtisadi, həm də siyasi sferada ciddi problemlərlə üzləşəcəyi barədə səslənən fikirlər təsadüfi deyil.

Hətta bu fonda Ermənistanın işğal etdiyi ərazilərdən əl çəkməyə məcbur qalacağı barədə proqnozlar da verilir. Şübhəsiz ki, regionda və düşmən dövlətdə yaranmış mövcud vəziyyət ciddi təhlil olunmalıdır. Bu əsnada hesab edirəm ki, biz dövlət və millət olaraq yaranmaqda olan əlverişli məqamdan öz xeyrimizə maksimum dərəcədə yararlanmalı və çəkinmədən, ilk növbədə, işğal altında olan ərazilərimizin düşmən tapdağından azad olunması üçün gərəkən addımları atmalıyıq. Əminəm ki, siyasi mənsubiyyətindən asılı olmayaraq, hər kəs bu məsələdə dövlətimizə gərəkən dəstəyi verməyə hazırdır".

***Vidadi ORDAHALLI***

**Ermənistandakı siyasi mübarizənin klanlar arasında getdiyi hamıya məlumdur. Həmin ölkədəki siyasi dairələr bunu nə qədər pərdələməyə çalışsalar da, mümkün olmur. Artıq bu mübarizəyə siyasətçilərin ailə üzvləri də qoşulub. Erməni KİV-nin verdiyi məlumata görə, həbsdə olan "Qarabağ klanı"nın lideri, Ermənistanın ikinci prezidenti Robert Köçəryanın oğlu Levon Köçəryan Nikol Paşinyanı tənqid və təhqir edən yazı paylaşıb.**

# Ermənistanda siyasi mübarizə "ailə davaları" formasına keçir - Paşinyanın təzə adı: "Amerikanın Nikolu"...

## *Elşən Mustafayev: "Bu da klanlar arasındakı ziddiyyətin daha açıq müstəviyə qədəm qoyduğuna sübutdur"*



O, Paşinyana olan nifrətini gizlətməyərək onun nə statusunu, nə də soyadını yazıb. Paşinyanı sadəcə "Amerikanın Nikolu" adlandıran Levon Köçəryan onu "1998-ci ildən əvvəlki status-kvonu bərpa etməkdə" ittiham edib:"Əslində, 1998-ci ildən əvvəl mövcud olan uğursuz status-kvonu bərpa edir. Amerikanın Nikolu 1998-ci ilə qədər mövcud olan status-kvonu bərpa etməklə təhdid edir. Düzdür, o, ailəmiz haqqında boş-boş söhbətlər etdi və ən sevdiyi "mahnı"nı oxudu, amma əslində ifadəsinin fərqli bir mənası var. 1998-ci ildən əvvəl mövcud olan status-kvonun bərpası iqtisadiyyatı məhv etmək və Qarabağ məsələsinin həllində çoxdan imtina edilmiş mərhələli həll variantına qayıtmaq deməkdir". Köçəryanın oğlunun bu açıqlaması Ermənistandakı siyasi mübarizənin mahiyyəti ilə bağlı daha hansı gerçəkilkləri üzə çıxarmış oldu?

Politoloq Elşən Mustafayev qəzetimizə açıqlamasında bildirdi ki, Ermənistanda "küçə demokratiyası"nın qələbəsi ilə hakimiyyətə gəlmiş Nikol Paşinyanın özündən əvvəl 20 il hakimiyyətdə olmuş "Qarabağ klanı"na qarşı apardığı total mübarizə işğalçı ölkədə siyasi mübarizəni getdikcə daha da dərinləşdirib:"Azərbaycanın işğal olunmuş ərazilərinin dağlıq hissəsində yaradılmış oyuncaq-separatçı rejimin rəhbərliyinə də Paşinyana nisbətən yaxın olan adamın seçilməsi bu qarşıdurmanı son həddə çatdırıb. Paşinyan hakimiyyəti "DQR" pezidentliyinə öz adamını yerləşdirməklə Dağlıq Qarabağda mövcudluğunu davam etdirən "Köçəryan-Sarkisyan klanı"nın son qalasını da özünə tabe etməyi bacardı. "Qarabağ klanı" isə son "seçkidə" öz namizədinin qələbəsinə Ermənistanda hakimiyyətə qayıtmağın son şansı kimi baxırdı. Çünki bundan əvvəlki əsilən Qarabağdan olan prezidentlərin Ermənistanda hakimiyyət trampline yüksəlməsinin startı da məhz separatçılara rəhbərlikdən sonra baş tutub. Paşinyanla bundan əvvəlki separatçı, qondarma Dağlıq Qarabağ rejimi arasındakı böhranın əsas səbəbi separatçıların "Qarabağ klanı" ilə bağlı olması idi. Dağlıq Qarabağdakı separatçı rejim, gizli olsa da, müxalifətdə olan Sarkisyan-Köçəryan klanını müdafiə edirdi. Bu da qətiyyən Paşinyan hökumətini razı sala bilməzdi. Bilirsiniz ki, Dağlıq Qarabağ məsələsi bu gün də Ermənistan ictimaiyyəti üçün həssas mövzu olaraq qalır. Millətçilik xəstəliyi bütün erməni cəmiyyətinə sirayət etdiyindən, yenə də Dağlıq Qarabağdan siyasi kart olaraq siyasi mübarizədə istifadə edirlər. Ona görə də, Paşinyan bu klanı tam olaraq siyasi səhnədən silməyi düşünür.

**Paşinyan separatçı rejimin dəyişdirilməsinə nail olmaqla təkcə Ermənistanda deyil, həm də Dağlıq Qarabağda möhkəmlənmiş oldu. Görürsünüz ki, Köçəryanın oğlunun müraciətində də məhz Qarabağ məsələsinə Paşinyanın yanaşmasının səhv olduğu qeyd edilir. O, atasının haqsız yerə həbs edildiyinə eham vurmur, əsasən siyasi münaqişənin həllində olan nöqsanlara diqqəti yönəldir. Bu da klanlar arasındakı ziddiyyətin daha açıq müstəviyə qədəm qoyduğuna sübutdur. Müraciətin təhqir tonunda olması bunu söyləməyə əsas verir".**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan mərhələli həllə vadar edilir...

**Ermənistanda son günlərdə ciddi narahatlıq predmetinə çevrilən məqamlardan biri Rusiya xarici işlər naziri Sergey Lavrovun məlum açıqlamasından sonra İrəvanın Dağlıq Qarabağ münaqişəsinin həllində mərhələli çözüm variantında əməli addımlar atmağa vadar edilə biləcəyidir. İşğalçı ölkədə hesab edilir ki, Rusiya başda olmaqla, regionda maraqlı qüvvələr Ermənistanı mərhələli həll planının icrasına vadar edə bilər.**

Artıq bu xüsusda çağrışların artması da Ermənistanın əndişəsinin, əslində səbəbsiz olmadığını göstərir. Rusiya Dövlət Dumasının deputatı Maksim İvanov da bildirir ki, Ermənistanın öhdəliklərə və razılıqlara əməl etməsi artıq zəruri şərtdir:"Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı razılaşdırılmış şərtlərə əməl edirsə, Ermənistan da bunu yerinə yetirməlidir". Onun sözlərinə görə, Rusiya Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdardır:"Hazırda müəyyən razılıq əldə olunub və bu razılaşmalarla problemin həllinə nail olmaq lazımdır. Ermənistan bunun üçün müvafiq addımlar atmalıdır". Erməni siyasətçi David Şahnazaryan isə bildirir ki, əslində İrəvan çox asanlıqla mərhələli həllə vadar edilə bilər. O hesab edir ki, bunun ümdə səbəbi Ermənistanın zəif hakimiyyətidir: "Dünyanın heç bir yerində, o cümlədən Rusiyada Ermənistanın baş naziri Nikol Paşinyanı ciddiyə almırlar. Bu səbəbdən o, Qarabağ məsələsində Ermənistanı istəmədiyi addımlar atmağa vadar etmək maraqlı qüvvələr üçün çətin olmayacaq".

Sergey Lavrovun Dağlıq Qarabağ münaqişəsi və Ermənistan üçün qaz qiymətləri ilə bağlı açıqlamasına münasibət bildirən Şahnazaryan qeyd edib ki, başqa dövlətə qarşı belə edilsəydi, deyərdim gülüncdür, amma bu vəziyyətdə faciəlidir. Onun sözlərinə görə, dünyanın hər yerində belə üslub qəbuledilməzdir: "Beynəlxalq münasibətlərdə belə iş tərzi qəbuledilməzdir və bu səbəbdən dünyanın heç bir yerində Paşinyanın hakimiyyəti ciddi qəbul olunmur. Lavrovun doğru və ya yanlış danışdığını bir kənara qoyaq, müttəfiqlərlə belə dildə və sözlərlə danışmaq düzgün deyil". Şahnazaryan, həmçinin, Ermənistanın beynəlxalq vəziyyətində köklü dəyişiklik olduğunu bildirib və bunu ölkənin açıq-aşkar zəif xarici siyasət komandası ilə əlaqələndirdiyini vurğulayıb. O, Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən daim "fırıldaqçılıq" faktlarının olduğunu da qeyd edib:"Ermənistanın və Rusiyanın rəsmi mətnlərində ciddi fərq var. Ermənistan versiyasında rus dilində olmayan böyük abzas var, rus dilində "güzəşt" yazılıb, erməni dilində isə "qarşılıqlı güzəşt". Onun fikrincə, bu təkcə xarici siyasətdə deyil, Ermənistanda həyatın bütün sahələrində müşahidə olunur: "Paşinyan hökumətinin səriştəsizliyi və savadsızlığı ümumxalq fəlakətinə çevrilib".

Digər erməni politoloq Şant Arutyunyan isə vurğulayır ki, əslində, Ermənistan artıq nələrəsə vadar edilir:"Ermənistan tərəfi bəyan edir ki, danışıqlar masasında hansısa sənəd yoxdur. Amma artıq belə bir fikir var ki, Paşinyan xalqı aldadır". Onun sözlərinə görə, Nikol Paşinyan nə olduğunu başa düşmədən danışıq aparır:"Nikol Paşinyan deyir ki, biz danışıqları aparmırıq. Lavrov və digərləri bizə cavab verir: Əzizim, nə istəyirsən de, amma bütün hallarda sənədi imzalayacaqsan". Arutyunyan qeyd edib ki, Paşinyan danışıqların nə olduğunu başa düşə bilmir. O hesab edir ki, artıq mərhələli həll planı işə salınıb. ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən təklif edilən bütün mövqe elə həmsədr dövlətlərin özləri tərəfindən münaqişənin tənzimlənməsi prosesinin bütün mərhələlərində dəfələrlə və ardıcıl olaraq səsləndirilib. Təbii ki, bu durumda Ermənistanın Azərbaycan ərazilərinin işğaldan azad edilməyəcəyini bəyan etməsi həm ATƏT-in Minsk Qrupunun həmsədrlərinə, həm də beynəlxalq birliyə meydan oxumaq deməkdir. Amma görünən odur ki, indi heç kim İrəvanın mövqeyini qəbul etmək niyyətində deyil. Burada nəzərə almaq lazımdır ki, beynəlxalq ictimaiyyət, nüfuzlu təşkilatlar Ermənistanın işğalçı siyasətindən, belə demək olarsa, cana doyublar. Bunu işğal olunmuş Dağlıq Qarabağda keçirilən "seçkilərə" sərt beynəlxalq münasibət də təsdiqləyir. Bu saxta "seçkilərin" nəticəsi heç bir ölkə, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlar, məsələn, 120 dövləti özündə birləşdirən Qoşulmama Hərəkatı, ATƏT-in Minsk Qrupunun həmsədrləri, Avropa İttifaqı, NATO, Avropa Parlamenti, Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digərləri tanınmadı. Əksinə, münaqişənin Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə tərəfdar çıxan dövlətlərin sayı getdikcə artmaqdadır. Digər tərəfdən bəllidir ki, Minsk Qrupu həmsədrlərinin 2019-cu il 9 mart tarixli bəyanatında da münaqişənin mərhələli həllinə dair mövqe xüsusi qeyd olunub. Burada Dağlıq Qarabağ münaqişəsinin mərhələli şəkildə həll edilməsi və bu mərhələli proses çərçivəsində ilkin addım kimi Azərbaycanın Dağlıq Qarabağ regionu ətrafındakı ərazilərdən Ermənistan qoşunlarının çıxarılması təsbit olunub. Həmsədrlər, o cümlədən Rusiya tərəfindən bunun yenidən aktuallaşdırılması isə tasadüf sayılmır və Ermənistana qarşı təzyiq rıçaqlarının işə salınması kimi dəyərləndirilir. Bu prosesdə Rusiyanın xüsusilə son dövrlərdə fəallaşması həm də Moskvanın Paşinyan iqtidarına qarşı daha sərt mövqeyə keçməsi ilə izah edilir. Bunu rusiyalı politiloq Vitali Arkov da xüsusi olaraq vurğulayır. O xatırladır ki, əslində, Paşinyandan əvvəlki Ermənistan iqtidarı Qarabağ danışıqlarında Bakı ilə razılıq əldə etmişdi: "Alınan məlumatların "akkumulyasiyası" nəticəsində aşağıdakı faktlar əldə edildi: İrəvan işğal olunmuş Azərbaycan rayonlarını Bakının nəzarətinə qaytarırdı. Buna cavab olaraq, Azərbaycan və Türkiyə Ermənistanın iqtisadi blokadasının bir hissəsini qaldırmalı idi - müdafiə sənayesi məhsullarının daşınması və ikili istifadəyə qadağa qalmaq şərti ilə. İstisna 102-ci Rusiya hərbi bazasına və Ermənistandakı digər Rusiya obyektləri üçün hərbi yükün daşınmasına aid idi. Birbaşa Dağlıq Qarabağa gəlincə isə, Ermənistan bütün hərbi heyətini bu ərazilərdən çıxarmalı və əhalini tərksilah etməli idi. Kompromis sənədlərinə əsasən, Azərbaycanın məcburi köçkünlərinə və onların övladlarına bölgəyə qayıtmaq hüququ verilirdi. Sənədlərdə daşınmaz əmlakın geri qaytarılması və ya bunun üçün kompensasiya məsələsində dəqiq bir anlayış yox idi. Danışıqlarda İrəvan hazırda Qarabağda əvvəllər azərbaycanlılara məxsus olan ev və mənzillərdə yaşayan ermənilərin qovulmasına qarşı çıxdı. Variant kimi sənədlərdə bölgənin infrastrukturunu bərpa etmək proqramı çərçivəsində yeni yaşayış evlərinin inşası təklif edildi. Çünkü bu illər ərzində İrəvanın nəzarəti dövründə Qarabağın infrastrukturu çökmüşdü. Digər tərəfdən, bölgədə yaşamaq istəməyən erməni millətindən olan sakinlər Qarabağı tərk edə bilərdi. Eyni zamanda, Ermənistan hökuməti onlara maddi dəstək vermək məcburiyyətində qalırdı. Krediti isə İrəvana Moskva təmin edəcəkdi. Bölgəyə nəzarət baxımından bütün hüquqların tədricən Azərbaycana qayıdışına başlanacaqdı. Ermənistan isə Rusiyanın maraqları üçün vacib olan bu məsələləri əngəlləməməyə boyun olurdu. Lakin Nikol Paşinyan ABŞ-ın Ermənistan hakimiyyət orqanlarındakı adamlarının dəstəyi ilə bu planla bağlı danışıqları müvəqqəti dayandırdı. Sonradan İrəvan bu sənədlərlə danışıqlarda iştirak etməkdən ümumiyyətlə imtina etdiyini bildirdi. İrəvan qeyd etdi ki, Ermənistanda rəhbərlik və ölkənin prioritetləri dəyişib. Burada İrəvanın bu göstərişi məhz Vaşinqtondan aldığını söyləmək daha doğru olar. Azərbaycanın və xüsusən də Rusiyanın bölgədə güclənməsində maraqlı olmayan quvvələr var, buna görə də onlara bu regionda gərginliyin qorunması vacibdir. Rusiya artıq bu durumla barışmaq istəmir və bu səbəbdən Ermənistana təzyiqləri artıracağını gözləmək olar. Moskva Qarabağ məsələsində indi tam şəkildə Azərbaycanın yanında yer alır. Kreml Paşinyan üzündən bölgədə mövqelərini uduzmaq istəmir. Lavrovun Qarabağ açıqlamalarını da məhz bu fonda dəyərləndirmək lazımdır.

Qarabağ məsələsində Kremlin İrəvana təzyiqlərinin daha da artacağını gözləmək olar". Elə Ermənistanın "Hayrenik" nəşri də yazır ki, Rusiya indi Azərbaycanın yanında yer almaqda daha maraqlı görünür:"Rusiya xarici işlər naziri Sergey Lavrovun bu mənada Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının mərhələli həll variantı haqqında bəyanat verməsi təsadüfi deyil. Onun Azərbaycan və Ermənistan nümayəndələrinin həll proqramının müddəaları ətrafında müzakirələr apardığını iddia etməsi Ermənistan üçün təzyiq elementidir". Nəşr bildirir ki, bu yanaşmalar həm dərinlik, həm də mahiyyət baxımından Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar erməni tərəfinin fikirləri ilə tərs mütənasibdir:"Lavrovun bəyanatına yer verən səbəblər Rusiyanın apardığı siyasət ətrafında suallar yaradır. Bu siyasət, əslində Azərbaycan yönümlü bəzi müddəalara sahibdir və Moskva onları zaman-zaman xatırladır". Nəşr qeyd edir ki, bu vəziyyətdə Ermənistan Qarabağ məsələsində daha çətin duruma düşəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunur.**

# Koronavirus dövründə 4 bank barədə ilginc qərar - ləğv edilə, birləşdirilə bilərmi..., artıq 2-si ləğv edildi

**Məlum olduğu kimi, Mərkəzi Bankın İdarə Heyətinin 27 aprel 2020-ci il tarixli müvafiq qərarları ilə "AtaBank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "AmrahBank" ASC-yə müvəqqəti inzibatçılar təyin olunub. Qanunvericiliyə uyğun olaraq, qeyd olunan bankların idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən, bank səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri inzibatçıya keçib.**




***Rəşad Həsənov:** "Müvəqqəti inzibatçının adıçəkilən bankların ləğv edilməsi haqqında da qərar verməsi mümkündür"*

***Samir Əliyev:** "Ödəmə qabiliyyətini itirmiş bank ən geci 9 ayadək müddətə müvəqqəti inzibatçı tərəfindən idarə olunur"*

Maraqlıdır, sözügedən banklar bağlana bilərmi? Və ya qeyd olunan banklar başqa kommersiya banklarına birləşdirilə bilərmi?

İqtisadçı-ekspert Samir Əliyev bildirdi ki, qanunvericiliyə uyğun olaraq, qeyd olunan bankların idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən, bank səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri müvəqqəti inzibatçıya keçib: "Banklar haqqında" Qanunun 57-ci maddəsi ödəmə qabiliyyətini itirmiş banka müvəqqəti inzibatçı təyin edilməsi ilə bağlıdır. Bu maddədə banka müvəqqəti inzibatçının təyin edilməsi şərtləri və müvəqqəti inzibatçının verəcəyi mümkün qərarlar nəzərdə tutulub.

Qanuna görə, Mərkəzi Bank ödəmə qabiliyyətini itirmiş banka müvəqqəti inzibatçının təyin edilməsi barədə qərar qəbul etdiyi gün öz işçiləri sırasından və ya kənar şəxslərdən banka müvəqqəti inzibatçı təyin edir və həmin gündən bankın rezolyusiyası prosesinə başlayır. Bununla da bankın idarə olunması üzrə bütün səlahiyyətlər, o cümlədən, bank səhmdarlarının ümumi yığıncağının səlahiyyətləri dayandırılır və səlahiyyətlər müvəqqəti inzibatçıya keçir.

Müvəqqəti inzibatçı təyin edildiyi gündən başlayaraq, ən geci 30 təqvim günü müddətində rezolyusiya metodunu, şərtlərini, iqtisadi əsaslandırmasını və müddətlərini özündə əks etdirən tədbirlər planını ödəmə qabiliyyətini itirmiş bankın maliyyə göstəricilərinə əsasən hazırlayıb MB-yə təqdim edir.

Ödəmə qabiliyyətini itirmiş bank ən geci 9 ayadək müddətə müvəqqəti inzibatçı tərəfindən idarə olunur. Bu müddətdə MB ödəmə qabiliyyətini itirmiş bankın rezolyusiyası ilə bağlı bir sıra tədbirlər həyata keçirir".

İqtisadçı-ekspert Rəşad Həsənov bildirdi ki, 30 gün ərzində inzibatçı bankların aktivləri və passivlərinin tam qiymətləndirilməsini həyata keçirməlidir, 45 gün müddətində, yəni 15 gün sonra isə, ümumiyyətlə, fəaliyyət planı işlənib hazırlanmalıdır və bu plana uyğun olaraq, Mərkəzi Bank tərəfindən qərarlar qəbul edilə bilər.

İqtisadçı onu da əlavə etdi ki, müvəqqəti inzibatçının adıçəkilən bankların ləğv edilməsi haqqında da qərar verməsi mümkündür. Bütün bunlar Mərkəzi Bankın səlahiyyətlərinə aiddir: "Hazırda inzibatçı təyin edilmiş dörd bankın ilk olaraq sağlam aktivlərinin birləşdirilməsi istiqamətində bir mövqe ortaya qoyulacaq. Yaxud da bir körpü bankın yaradılması yolu ilə bu bankların vəsaitlərinin, sağlam aktivlərinin körpü bankda birləşdirilməsi və sonradan onun vasitəsilə satışın həyata keçirilməsinə çalışılacaq. Çünki ilin əvvəlində ölkə başçısı tərəfindən bank sektorunda hər hansı bir risqin ortaya çıxma ehtimalının aşağı olması ilə bağlı fikirlər səsləndirilmişdi. Təbii ki, şərait dəyişib, pandemiya bank sektoru üçün, xüsusilə maliyyə vəziyyəti aşağı olan banklar üçün çox ciddi problemlər yaradır. Hətta "AtaBank"la bağlı Mərkəzi bankın bir neçə ay əvvəl açıqlaması var idi. Faktiki, bu bankların maliyyə vəziyyəti indiki şərtlərdə prosesin davam etdirilməsi üçün yetərli olmayacaq, amma bununla yanaşı, Mərkəzi Bank bankların müflis elan edilməsi məsələsinə daha həssas yanaşa bilər. Çünki cari vəziyyətdə bank sektoruna inamın aşağı düşməsi Mərkəzi Bank üçün arzu olunmayan bir vəziyyətdir. Belə şəraitdə sürətlə əmanətlərin banklardan geri çəkilməsi prosesi başlayar. Ötən ay ərzində depozitlərin də azalması prosesi başlayıb. Bu da postpandemiya dövründə dövlətin, iqtisadiyyatın bərpası istiqamətində fəaliyyət planlarına ciddi çətinlik yarada bilər. Belə olduğu təqdirdə passiv aktivlərin, yığımların dövriyyəyə cəlb edilməsi imkanları məhdudlaşır. Vəsaitlər iqtisadiyyatdan kənarlaşır, ayrı-ayrı insanların əlində passiv şəkildə toplanır və eyni zamanda, iqtisadi sektorda sahibkarlıq subyektləri üçün maliyyəyə çıxış imkanları məhdudlaşır. Yəni ola bilsin ki, məhz sadalanan faktorları nəzərə alaraq, Mərkəzi Bank daha çox bankların sağlam aktivlərinin qorunub saxlanması istiqamətində mümkün imkanlarını səfərbər edərək, mövqe ortaya qoyacaq. Amma bir məsələni də nəzərə almaq lazımdır ki, bankların konsalidasiyası ilə bağlı uzun müddətdir bir müzakirə olsa da, Azərbaycan bankları bu məsələyə soyuq yanaşırlar. Bankların idarəetməsində şəffaflığın olmaması konsalidasiya prosesinin həyata keçirilməsində əsas maneələrdən biridir. Düşünürəm ki, Mərkəzi Bank bütün bu şərtləri nəzərə alaraq qərar qəbul edəcək".

Günün sonunda isə Mərkəzi Bankın İdarə Heyətinin 28 aprel 2020-ci il tarixli qərarına əsasən, yuxarıda adları göstərilən banklardan ikisinin - "AtaBank" ASC-nin və "AmrahBank" ASC-nin lisenziyalarının həmin tarixdən etibarən ləğv edildiyi açıqlanıb.

Mərkəzi Bankın bu barədə yaydığı məlumatda bildirilir ki, qeyd olunan bankların maliyyə vəziyyətinin pisləşməsi çoxdan başlayıb, xüsusən "AtaBank" ASC uzun müddətdir əhalinin əmanətlərinin qaytarılması üzrə öhdəliklərini icra edə bilmirdi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 28 noyabr tarixli, 1616 nömrəli Sərəncamına əsasən, Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edildikdən və qanunvericiliklə müəyyən edilmiş aidiyyəti səlahiyyətlər təhvil alındıqdan sonra Mərkəzi Bank tərəfindən hər iki bankda aparılan yoxlamalar nəticəsində məlum olub ki, onlar ciddi maliyyə itkilərinə yol verib, öz kapitallarını tam itirib və müflis vəziyyətinə düşüblər. Bankların səhmdarları ilə müzakirələrdə onlar yoxlamaların nəticələri barədə məlumatlandırılıb və onlara bankları əlavə kapitallaşdırmaq təklif olunub, lakin onlar bu imkandan istifadə etməyiblər.

Qeyd edək ki, Azərbaycan Mərkəzi Bankı ölkənin bank sisteminin, bütövlükdə, dayanıqlı olduğunu bəyan edib, lakin sistemdə "nöqtəvi" problemlər olduğunu dəfələrlə bildirib. Qeyd olunan iki problemli bankın sektorun aktivlərində xüsusi çəkisi 2,1%, kredit portfelində isə 3% təşkil edir.

Maliyyə dayanıqlığı problemi olan kommersiya bankları ilə bağlı situasiyanın maliyyə sabitliyi xarakteri daşıması, habelə aidiyyəti dövlət qurumları və Əmanətlərin Sığortalanması Fondu ilə koordinasiya edilmiş qaydada həll edilməsi zərurəti nəzərə alınaraq, məsələ ilə bağlı Maliyyə Sabitliyi Şurasında ətraflı müzakirələr aparılıb və Mərkəzi Bank qəbul etdiyi qərarlarda Şuranın tövsiyələrini nəzərə alıb.

Qeyd olunanları nəzərə alaraq, məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdardan az olduğuna, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə "AtaBank" ASC-nin və "AmrahBank" ASC-nin lisenziyaları Mərkəzi Bankın İdarə Heyəti tərəfindən 28 aprel 2020-ci il tarixindən etibarən ləğv edilib və hər iki bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub.

Bildirilir ki, "AtaBank" ASC və "AmrahBank" ASC Əmanətlərin Sığortalanması Fonduna üzv banklardır və əhalinin bu banklarda qorunan əmanətləri heç bir dövlət vəsaiti cəlb etmədən Fond tərəfindən tam ödəniləcək. Fondun vəsaiti çatmasa, mövcud qanunvericiliyə uyğun olaraq, çatışmayan məbləğ üzrə Mərkəzi Bank tərəfindən kredit ayrılacaq. Bu kredit Fond tərəfindən bağlanmış bankların aktivlərinin reallaşdırılmasından daxil olan vəsait və fəaliyyətdə olan bankların ödədikləri təqvim haqqı hesabına ödəniləcək. Əmanətlərin ödənilməsi mövcud prosedurlara uyğun şəffaf şəkildə təşkil olunacaq və əmanətçilər dövri olaraq məlumatlandırılacaqlar.

**"AtaBank" ASC-nin və "AmrahBank" ASC-nin digər öhdəlikləri məhkəmə tərəfindən təyin olunacaq ləğvedici tərəfindən qanunvericiliyə müvafiq qaydada tənzimlənəcək.**

**Müvəqqəti inzibatçı təyin edilmiş digər iki bank - "AGBank" ASC-də və "NBCBank" ASC-də qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilir.**

Mərkəzi Bank bildirir ki, bank sisteminin sağlamlaşdırılması, problemli bankların sistemdən uzaqlaşdırılması nəticəsində əhalinin öz əmanətlərindən istifadə hüquqlarının bərpa edilməsi atılan digər addımlarla birgə bank sektoruna inamın daha da artırılmasına şərait yaradacaq.

Qeyd olunan prosesləri qanunla müəyyən edilmiş prosedurlar və müddətlərdə icra etmək üçün Azərbaycan Mərkəzi Bankı xüsusi tədbirlər planı hazırlayıb və bu planın icrası barədə əmanətçilər, ictimaiyyət mütəmadi məlumatlandırılacaq.

***Günel CƏLİLOVA***

**Dünya bazarlarında neftin qiyməti indi bütün hasilatçılar üçün qeyri-məqbul olub, ucuzlaşmaqda davam edir. Artıq "Brent" markalı neftin iyun müqavilələrinin bir barrel üçün qiyməti 18,96 dollara qədər azalıb. Azərbaycan nefti də 20 dollardan ucuz satılır. Ən pis göstərici isə ABŞ nefti ilə bağlıdır.**

# Neftin ucuzlaşması ABŞ-ı çökdürür, Vaşinqton qiymət yüksəlişi üçün sərt müdaxiləyə hazırlaşır



Belə ki, ABŞ neftinin bir barrelinin qiyməti 15,02% azalaraq 10,86 dollar təşkil edir. Məhz bu durumda neft qiymətləri ilə bağlı ciddi problem yaşayan ABŞ "qara qızıl"ın qiymət artımına hamıdan çox maraq göstərməyə başlayıb.

Okeanın o tayında qiymətin belə kəskin enməsinə səbəb ABŞ-ın ən böyük neft paylama mərkəzi olan "Cushing"də anbarların maksimum səviyyədə dolması, eləcə də Kaliforniya sahillərində bir neçə gündür onlarla neft tankerinin dayanmasıdır. Təkcə "Long Beach" limanı yaxınlığında 27 tanker lövbər atıb. "The Wall Street Journal" nəşrinin məlumatına görə, neft bazarının həddən çox yüklənməsi səbəbindən qurudakı anbarlarda yer çatışmır. Treydərlər xam nefti saxlamaq üçün tankerləri icarəyə götürməyə məcbur olur. Malta və Cənubi Afrika sahillərində də analoji vəziyyət hökm sürür.

Qeyd edək ki, koronavirus pandemiyası fonunda tələbatın azalması səbəbindən dünyada neft anbarları tez bir zamanda dolub. Ötən həftə ABŞ-ın Energetika Nazirliyi ehtiyatların artaraq 518,6 milyon barrelə çatdığını bildirib. Bu durumda alıcı olmadığı üçün neft tankerləri Kaliforniya sahillərində 20 milyon barrellik rekord həcmdə yüklə açıq dənizdə gözləməyə başlayıb. "Reuters"in məlumatına görə, dünya miqyasında dənizlərdəki tankerlərdə 160 milyon barrel neft qalıb. Qeyd edək ki, 2019-cu ildə sutkada 100 milyon barrel olan neft tələbatı koronavirus səbəbindən bu ilin aprel ayında 70 milyon barrelə qədər azalıb. Vəziyyətin hələ müəyyən müddət bu şəkildə davam etməsi gözlənilir. Bu isə neft qiyməti ilə bağlı böhranın davam edəcəyini təsdiq edir. Ekspertlər bildirir ki, bu vəziyyətdə ABŞ-ın neft qiymətləri ilə bağlı növbəti addımlar atması gözlənilir. Çünki ölkənin neft hasilatı sənayesi tam sıradan çıxır. Neft məsələləri üzrə ekspert İvan Danilov da ABŞ-da neft böhranının ağır keçdiyini bildirir:"Qlobal maliyyə elitasının gündəminin təşviqində ixtisaslaşan nüfuzlu Britaniya nəşri "Financial Times"in redaksiyası belə etiraf edir ki, hələlik hər şey pis gedir, amma bütövlükdə Amerika və Amerikanın şist neft sektoru, xüsusilə Rusiya və Səudiyyə Ərəbistanından nə vaxtsa bunun qisasını alacaqlar. Hələlik isə? "Financial Times"ın yazdığına görə vəziyyət təxminən belə görünür: Amerika neft sənayesinin şist sektoru böyük əzab-əziyyət çəkir və özünü alçaldılmış hiss edir. Britaniya nəşrinin analitikləri bildirirlər ki, ABŞ-ın şist sektoru hazırda dizləri üstə çöküb. Neft hasilatı və treydinqi şirkətlərinin nümayəndələri də neft bazarının perspektivlərini təsvir etmək üçün heç də az emosional ifadələr işlətmirlər.

Ümumilikdə, belə bir obraz təsvir olunur: şist sənayesi sanki dizləri üstə çöküb və onu üzünə vururlar. Bu vəziyyətdə nikbinliyi necə tapmaq olar? Nikbinlik üçün isə ABŞ-ın "Council on Foreign Relations" analitik mərkəzindən olan xüsusi ekspertlər var. "Financial Times" da bu analitik mərkəzin eksperti Emi Mayersin neft bazarına dair mövqeyini paylaşır: "Rusiya və Səudiyyə Ərəbistanı şist sənayesini bağlaya biləcəklərini hesab edir. Amma onların yalnız edə biləcəkləri şist şirkətlərinin sahiblərini dəyişdirmək olacaq". Analitik, əslində şist şirkətlərinin müflisləşməsi fonunda onların sahiblərinin dəyişəcəyini iddia edən çox populyar bir mövqeni təkrar edir - yeni sahiblərin üzərində köhnə borcların yükü olmur və onlar məmnunluq hissi ilə ABŞ-ın geosiyasi maraqlarını təşviq etmək naminə bazarda ucuz neft satacaqlar. Bu nəzəriyyənin problemi ondadır ki, yeni sahiblər məhz şist inqilabının baş verməsini maliyyələşdirmiş kreditorlar olacaqlar. İndi isə bu kreditorlara ziyanlı şist yataqları veriləcək və yataqlarda iş davam edərsə, onların daha çox pul itirmək perspektivi yaranacaq.

Kapital bazarlarında şist şirkətlərinin işinin davam etdirməsinə kömək edəcək sərmayədarları axtarmaq olar, lakin bunu etmək çox çətin olacaq: şistin perspektivinə inanan sərmayədarların hamısı ona artıq yatırımlar edib və kütləvi müflisləşmə prosesində neft şirkətlərinin aktivlərinin qalıqlarına məhz onlar sahib olmalıdır. Amerikanın Enerji İnformasiya Agentliyinin dəyərləndirməsinə görə, ABŞ artıq 2020-ci ilin sonunda xalis neft idxalçısı statusuna qayıdacaq. OPEC+ sövdələşməsinin iştirakçıları qarşısında heç vaxt Amerikanın neft sənayesinin məhz şist seqmentini "məhv etmək" vəzifəsi durmayıb. Vəzifə özgə pulları ilə dempinqlə məşğul olan və digər hasilatçılara zərər vuran Amerika şirkətlərinə dərs verməkdən və ya onları bazardan çıxarmaqdan ibarət idi. Müəyyən mənada "dərs vermək" mümkün olmasa da, "bazardan çıxarmaq" variantı - özü də sözün əsl mənasında, fiziki olaraq - hələ ki, pis alınmır. Belə ki, Texasın "Houston Chronicle" qəzetinin verdiyi məlumata görə, Texasda neft quyularının kütləvi bağlanması başlayıb". Ekspert qeyd edir ki, məhz bu vəziyyətdə ABŞ neftin sabit qiyməti üçün digər hasilatçılarla razılıq əldə etməlidir. Belə bir razılığın olmasında isə bütün hasilatçılar, o cümlədən Azərbaycan da maraqlıdır. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan 1994-cü ildən bəri ilk dəfə BP şirkətini ölkədəki layihələr çərçivəsində hasilatı azaltmağa çağırıb. Əsas məqsəd OPEC+ razılaşması çərçivəsində Azərbaycanın neft hasilatını azaltmasına dair üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdir.

**"Reuters" agentliyi xatırladır ki, OPEC+ ölkələrində iri neft şirkətləri ümumiyyətlə hökumət tərəfindən olunan hasilat azalmalarından kənar qalırdı. Amma artıq vəziyyət dəyişib. Xatırladaq ki, dünya neft bazarında balansın yaradılması və neftin qiymətinin sabitləşdirilməsi məqsədilə Azərbaycan da üzərinə yeni öhdəliklər götürüb. 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barrel olan Azərbaycan yeni razılaşma çərçivəsində hasilatı həmin səviyyədən 164 min barrel azaltmalı olacaq. May-iyun ayları ərzində Azərbaycan gündəlik xam neft hasilatını 554 min barrel həcmində saxlamalıdır.**

***Ramil QULİYEV***

# Azərbaycanda yeni ictimai rəy - "Dəbdəbəli yas, toy ziyafətlərini postkorona dövründə də istəmirik..."

**Koronavirus pandemiyasının yaratdığı çətinliklər bütün dünyaya bəllidir və danılmazdır. Ancaq bu müddət ərzində insanların özünütəcrid proqramı çərçivəsində müəyyən mənada çoxlu müsbət cəhətləri də əxz etdiyi məlum olur. Məsələn, vətəndaşlarımız israfçılıqla bağlı olan müəyyən yas və toy məclislərinin dəbdəbəsiz də keçirilməsinin mümkünlüyünü dərk etdilər.**

***Fazil Mustafa:*** *"İsrafsız dini mərasimləri bir ənənəyə çevirmək artıq dövlətin həm təbliğat, həm də tətbiqat baxımından görəcəyi ən vacib işlərdən biridir"*

***İlqar Hüseynli:*** *"İnsanlar gördülər ki. kütləvilik, dəbdəbə olmadan toy da etmək olur, yası da yola vermək mümkündür"*



Məlum oldu ki, bu cür xeyir və şər mərasimlərində mütləq deyil ki, yüzlərlə, bəzən isə minlərlə adam iştirak etsin. Belə addımlar həm də vətəndaşlarımızın büdcəsinə ziyan vurur. Cəmiyyətdə tez-tez belə təkliflər edilir ki, yas və toylarla bağlı indiki məhdudiyyət normaları pandemiyadan sonrakı dönəm üçün də tətbiq edilsin. Buna ekspertlər necə yanaşır?

Millət vəkili Fazil Mustafanın sözlərinə görə, ay yarımdır insanlar sakitcə, təmtəraqsız, mollaların at oynatdığı məclislərdən uzaq ölüsünü dəfn edib, gəlib evində gələcək qayğıları ilə məşğul olurlar:"Mənasız 7, 40, il mərasimlərinə xərclənən pulları da ciblərində qalıb. Müasir texnologiyanın köməyi ilə, yaxud da sosial şəbəkədə "Allahdan rəhmət!" diləməklə israfçılığın da qarşısı alınıb. İndi hünər odur ki, bunu dəstəkləməyən dinçilərin müqavimətini qıraraq epidemiya təhlükəsindən sonra da elə bu cür davam edilsin. İsrafsız dini mərasimləri bir ənənəyə çevirmək artıq dövlətin həm təbliğat, həm də tətbiqat baxımından görəcəyi ən vacib işlərdən biridir".

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli də bu qadağaların davam etməsinin tərəfdarıdır:"Bu məsələ qanunla tənzimlənməlidir. Neçə illərdir ki, xeyir və şər məclislərindəki israfın qarşısının alınması ilə bağlı müzakirələr gedir. Biz də bunun nizama salınmasını istəmişik. Ancaq hiss olunurdu ki, həmin eybəcər forma alan israfın qarşısının alınmamasında maraqlı olan qüvvələr var. Açıq deyim ki, bunun başında məmur və imkanlı adamlardan ibarət olan monopolistlər durur. Çünki ölkədə fəaliyyət göstərən xeyr-şər evləri və şadlıq saraylarının çoxu bilavasitə və ya dolayısı ilə məmurlara məxsusdur. Bununla bağlı inzibati mexanizmlər olmalıdır. Yalnız maarifləndirmə ilə belə qadağaların tətbiqi mümkün deyil. Pandemiyadan sonra məsələni Milli Məclisin müzakirəsinə çıxarmaq lazımdır. Orda qanun şəklində müzakirə edilib qəbul olunsun. Təəssüflə qeyd etməliyəm ki, yas mərasimlərində israfın qarşısını almaq üçün indiyə kimi nüfuzlu dini təşkilatların fətfasına rast gəlməmişik. Bu səbəbdən da qanunları sərtləşdirib, israfın qarşısını bu üsulla almalıyıq. Bu dönəm insanlara həmin mərhələ üçün adaptasiya imkanlarını verdi. İnsanlar gördülər ki. kütləvilik, dəbdəbə olmadan toy da etmək olur, yası da yola vermək mümkündür. Bir telefon zəngi ilə başsağlığı vermək olursa, niyə sadələşdirməyək? Bunu həyat normasından çıxarıb, ictimai münasibətlər kontekstinə daxil etməyimiz lazımdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Pandemiya ilə bağlı Azərbaycanda vətəndaşlara psixoloji yardım necə göstərilir...

**Dünyada koronavirus pandemiyasının yayılması ilə əlaqədar bir sıra ölkələrdə, o cümlədən, Azərbaycanda da karantin rejimi tətbiq olunub. Nəticədə insanlar evdə qalmağa məhkum olublar. Bu isə əksər insanlarda bir sıra psixi pozuntuların yaranmasına, depressiyaya düşmələrinə səbəb olur.**

***Könül İsmayılova:*** *"Pandemiya səbəbindən bir çox sosial və məişət probleminin yaranması insanlarda psixoloji narahatlıq doğurur"*



Elə bu məqsədlə aprelin 6-dan etibarən Təhsil Nazirliyinin yeni 146-3 "qaynar xətt" xidməti fəaliyyətə başlayıb. Belə ki, koronavirus infeksiyası ilə əlaqədar ölkəmizdə karantin rejimi elan olunduğuna görə evdə qalan şagirdlər, eləcə də bütün vətəndaşlar mənəvi-psixoloji dəstəyə ehtiyac duyduqları hallarda sözügedən "qaynar xətt" xidmətindən yararlana biləcəklər. Həftəiçi hər gün saat 10:00-dan 18:00-dək "qaynar xətt" xidməti ilə əlaqə yaradan hər bir vətəndaşa məktəb psixoloqları tərəfindən telefon vasitəsilə psixoloji konsultasiya təşkil ediləcək, onlar lazımi dəstəklə təmin olunacaqlar.

Məlumat üçün bildirək ki, bu günə kimi 146-3 "qaynar xətt"inə 700 mindən artıq müraciət daxil olub.

Təhsil naziri Ceyhun Bayramov Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində çıxışı zamanı bildirib ki, psixoloji xidmət üçün müraciət edən şəxslərə lazımi köməklik göstərilib.

Karantin dönəmində insanlara göstərilən psixoloji yardımın əhəmiyyəti haqqında danışan psixoloq Könül İsmayılova qeyd etdi ki, məlum pandemiya səbəbindən bir çox sosial və məişət probleminin yaranması insanlarda psixoloji narahatlıq doğurur. Bunlara fobia, qorxu, həyəcan pozuntuları, ailədaxili konfliktlər, özünəqapanma, qidalanma pozuntuları, depressiya və emosional partlamalar daxildir: "Pandemiya ilə bağlı müxtəlif səbəblərdən sıxıntı keçirən insanların psixoloji yardıma müraciət etməsi və onlara lazımi dəstəyin göstərilməsi təqdirəlayiqdir".

Həmsöhbətimiz bildirdi ki, karantin bitəndən sonra da insanlar bir-birinə həm fiziki, həm də psixoloji məsafəli olacaqlar: "İnsanlar qrup şəklində toplaşmaqdan çəkinəcəklər və münasibətlər soyuqlaşacaq. Bu, insanların əmək fəaliyyətinə də təsir edəcək. Elə insanlar var ki, istirahətdən sonra bütün gücünü işə verir, elə insanlar da var ki, artıq rahat rejimə öyrəşir"

Psixoloqun sözlərinə görə, adaptasiya prosesi şagird və tələbələr üçün daha stressli və çətin olacaq: "Həm təhsil, həm də iş mühitində adaptasiya prosesində axsaqlıqlar olacaq. İnsanlar bu xəstəliyə qarşı qorxu və həyəcanı aradan qaldırsalar, cəmiyyətə yenidən adaptasiya elə də çətin olmayacaq.

Düşünürəm ki, bu müddət ərzində insanlar sahib olduqları işin də, təhsil müəssisəsinin də dəyərini bilməyə başladılar. Adaptasiya dövrü insana görə dəyişir. Əgər insanlar karantin rejiminə 1-2 həftəyə uyğunlaşdılarsa, karantindən sonrakı həyata da eyni müddət ərzində adaptasiya ola bilərlər. Amma dezadaptasiya bəzən 3 ayı keçir və insanda stress yaradır. Bu zaman psixoloji yardım almaq lazımdır. Normal olaraq insan maksimum 3 həftəyə yenidən əvvəlki həyatına uyğunlaşır".

***Günel CƏLİLOVA***

Koronavirus pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə nəzərdə tutulmuş vergi güzəştləri paketinin ümumi dəyəri 114 milyon manata yaxındır. Bunu Vergilər nazirinin birinci müavini Sahir Məmmədxanov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deyib.

*"Vergi güzəştləri, əslində, dövlətin dolayı maliyyə dəstəyini ifadə edir"*

# Pandemiyadan zərər çəkmiş sahibkarlara vergi güzəşti - hələlik 114 milyon...

S.Məmmədxanov bildirib ki, bununla bağlı Vergi Məcəlləsinə "Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi" adlı yeni on səkkizinci fəsil əlavə edilir.

Dəyişikliyə görə, pandemiyanın bilavasitə təsir etdiyi, sənəddə nəzərdə tutulan fəaliyyət sahələri üzrə vergi ödəyicilərinə əmlak və torpaq vergiləri üzrə tam məbləğdə, əldə edilən mənfəətin (gəlirin) 75 faizi miqdarında vergi güzəştlərinin verilməsi təklif olunur.

Bundan başqa, sadələşdirilmiş verginin ödəyicisi olan ictimai iaşə fəaliyyəti və sərnişin daşımaları fəaliyyəti həyata keçirən vergi ödəyicilərinə yuxarıda qeyd edilən əmlak və torpaq vergiləri üzrə güzəştlərlə yanaşı, sadələşdirilmiş vergi məbləği üzrə 50 faiz güzəştin verilməsi nəzərdə tutulur.

Bütövlükdə, 114 milyon manat vergi güzəşti indiki dövrdə sahibkarlar üçün nə dəməkdir?

Sözügedən məsələni dəyərləndirən millət vəkili Vüqar Bayramovun fikrincə, sözügedən güzəştlər sahibkarlar üçün böyük dəstəkdir: "Yeni vergi güzəştlərinin tətbiqi iqtisadiyyatın leqallaşdırılması, daha liberal iqtisadiyyatın formalaşması və bu kontekstdən postpandemiya dövründə yeni iqtisadi modelin tətbiq edilməsindən xəbər verir. Azərbaycan hökuməti tərəfindən təsis edilən iqtisadi paket həm pandemiya, həm də postpandemiya dövründə sahibkarların dəstəklənməsini nəzərdə tutur. Bu baxımdan vergi güzəştləri sahibkarların həm xərclərini minimallaşdırmaq, həm də iqtisadi aktivliyi daha qısa zamanda bərpa etmək imkanı verəcək. Güzəştlər mikromüəssisələr daxil olmaqla, praktik olaraq

**Vüqar Bayramov:** *"...iqtisadi aktivliyi daha qısa zamanda bərpa etmək imkanı verəcək"*



bütün sahibkarlıq subyektlərini əhatə edir. Sadələşdirilmiş vergi subyektləri üzrə faiz dərəcələrinin iki dəfə azaldılması həyata keçirilir. Həm də sahibkarlar üçün mənfəət və gəlir vergisindən 75 faizlik güzəşt tətbiq edilir. Digər tərəfdən, torpaq və əmlak vergisində olan güzəştləri qeyd etməliyik.

Güzəştlərin strukturuna və miqyasına nəzər yetirən zaman əyani şəkildə qeyd etmək olar ki, bu güzəştlər sahibkarların öz fəaliyyətlərini daha qısa zamanda postpandemiya dövründə bərpa etməsinə imkan verəcək. Məqsəd iqtisadi aktivliyin az müddətdə əldə edilməsinə nail olmaqdan ibarətdir. Vergi güzəştləri, əslində, dövlətin dolayı maliyyə dəstəyini ifadə edir. Çünki bu zaman sahibkar hesabladığı vergini büdcəyə ödəmir və özünün sərəncamında saxlayır. Bu da, təbii ki, onun fəaliyyətinin genişləndirilməsinə imkan yaradır".

***Vidadi ORDAHALLI***

Azərbaycan turizminin mövcud vəziyyəti, həmçinin, karantindən sonrakı və postpandemiya dövründə daxili turizmin inkişafını sürətləndirən amillər nəzərdən keçirilib. Ölkənin bütün turizm qurumlarının səyi ilə yaxın günlərdə daxili turizmin fəaliyyəti və inkişaf perspektivlərinin dəqiq mexanizmi işlənib hazırlanaraq müvafiq qurumlara təqdim olunacaq.

*"Ramazan bayramından sonrakı dövr üçün insanların ən çox səfər etdikləri Quba, Xaçmaz, Şəki, Qəbələ istiqamətində yeni turizm marşrutları hazırlanır"*

# Azərbaycanda daxili turizmin yeni mexanizmlərinə ciddi ehtiyac var - Pandemiya bu sahəni də dəyişir...

Azərbaycan Turizm Assosiasiyasının yaydığı məlumatda qeyd olunur ki, assosiasiya nümayəndələri tərəfindən pandemiya dövründə Azərbaycan turizminin mövcud vəziyyəti, həmçinin, karantindən sonrakı və postpandemiya dövründə daxili turizmin inkişafını sürətləndirən amillər nəzərdən keçirilib. Qurumlar arasında Assosiativ Tərəfdaşlıq haqqında Memorandum qəbul edilib. Memorandumun əsas məqsədi vahid platformadan çıxış edərək bütün səyləri bir araya gətirib, turizm qurumları arasında qarşılıqlı, səmərəli və faydalı əməkdaşlığı inkişaf etdirmək, turizmin inkişafında vətəndaş cəmiyyəti nümayəndələrinin fəallığını yüksəltmək, hər bir qurumu təmsil edən mütəxəssislərdən ibarət "beyin mərkəzi"nin yaradılması, zəruri layihələrin birgə işlənməsi, ölkənin turizm potensialının üzə çıxarılması və təbliği kimi məsələlərdir.

"New Era" turizm şirkətinin rəhbəri, turizm sahəsi üzrə ekspert Elçin Rüstəmov qeyd etdi ki, bu sahədə beynəlxalq təcrübəyə istinadən işlər görülə bilər: "Tendensiya bütün ölkələrdə eynidir. Uçuşların olmadığı bir zamanda bütün dövlətlər əsas gücü daxili turizm potensialının inkişaf etdirilməsinə verib. Bizdə də beynəlxalq təcrübəyə istinadən müəyyən işlər görülür. Xüsusilə də Ramazan bayramından sonrakı

**Elçin Rüstəmov:** *"Uçuşların olmadığı bir zamanda bütün dövlətlər əsas gücü daxili turizm potensialının inkişaf etdirilməsinə verib"*



dövr üçün insanların ən çox səfər etdikləri Quba, Xaçmaz, Şəki, Qəbələ istiqamətində yeni turizm marşrutları hazırlanır.

Üzü yaya doğru getdiyi üçün axının böyük hissəsinin yay istirahət komplekslərinə olacağı gözlənir. Çimərlik mövsümü başladıqdan sonra əsas kütlə bu sahəyə yönələcək. Bu da, təbii ki, həmin ərazilərdə yerləşən turizm obyektlərinin gəlirinin genişlənməsi üçün olduqca əlverişli şərait yaradacaq. İnsanlar qoyulan gigiyenik qaydalara əməl etməklə bütün turizm xidmətlərindən istifadə edə bilərlər".

***Günel CƏLİLOVA***

# Ticarətlə məşğul olanların da sosial sığorta yükü 50 faiz azaldılır...

***Firdovsi Şahbazov:** "Sözügedən dəyişikliklər həm sahibkarlar, həm də ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir"*

**Məlum olduğu kimi, koronavirus pandemiyasının mənfi təsirinə məruz qalan sahələrdə çalışan bir sıra sahibkarlıq subyektlərinin sosial sığorta yükü azaldılır. Bununla bağlı güzəştlər geniş spektri əhatə edəcək.**

Sosial sığorta yükünün azaldılması COVID-19 pandemiyasının mənfi təsir göstərdiyi sahibkarlıq subyektlərinin maliyyə imkanlarını yaxşılaşdıracaq.

Bu arada məlum olub ki, koronavirusla əlaqədar ticarətlə məşğul olan sahibkarların da sosial sığorta yükü azaldılır. Dövlət Vergi Xidmətinin Vergi Siyasəti Baş İdarəsinin şöbə rəisi Rəşad Nuriyev bildirib ki, hazırda ticarət fəaliyyəti ilə məşğul olan şəxslər 125 manat sosial sığorta haqqı ödəyirlər. Dəyişiklikdən sonra isə sahibkar 62 manat 50 qəpik sosial sığorta ödəyəcək: "Bu da sosial sığorta yükünün 50 % azalması deməkdir. Digər sahədə çalışanlar da 2020-ci il aprelin 1-dən 2021-ci il yanvarın 1-ə qədər güzəşt əldə edirlər. Buna fərqlənmə nişanı ilə taksi fəaliyyəti göstərənlər də daxildir".

R. Nuriyevin fikrincə, sabit qəbz və fərqlənmə nişanı əldə etməklə fəaliyyət göstərən bərbər, dərzi, bağban, dayə, fərdi fəaliyyət göstərən musiqiçilər və digər vergi ödəyicilərinin də sosial sığorta yükü azaldılır. Bu rəqəmlər bölgələr üzrə əmsallaşdırılaraq hər bölgə üzrə müxtəlif rəqəmlər müəyyən ediləcək. Bu da o deməkdir ki, bölgələrdə sabit qəbz almaqla fəaliyyət göstərən sahələrdə çalışanların sosial sığorta yükü paytaxtdakından daha aşağı olacaq.

Bütün bunlarla yanaşı, ticarətlə məşğul olan sahibkarların sosial sığorta yükünün azaldılmasını ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələni baki-xeber.com-a şərh edən iqtisad üzrə fəlsəfə doktoru Firdovsi Şahbazov buna müsbət prizmadan yanaşdı. Onun sözlərinə görə, 30 noyabr 2018-ci il tarixli "Sosial sığorta haqqında" Qanuna edilən dəyişikliklə sosial sığorta ödənişlərində Bakı şəhəri ilə regionlar arasında mövcud fərqlər aradan qaldırılıb: "Ticarət və tikinti sahəsində fəaliyyət göstərməyən fərdi sahibkarlar üçün sosial sığorta ödənişi 2020-ci ilin yanvarından etibarən minimum əməkhaqqının 20 faizindən 25 faizə qaldırılıb. Əvvəllər sosial sığorta üzrə müəyyən olunan faiz miqdarının Bakı şəhərində 100%-i, Sumqayıt və Gəncə şəhərlərində 90%-i, respublika tabeli digər şəhərlərdə 80%-i, digər şəhərlərdə və qəsəbələrdə 60%-i, kənd yerlərində 50%-i ödənilirdi. Ancaq qeyd olunan qanunla bu fərqlər 2020-ci ilin yanvar ayından etibarən aradan qaldırılıb, ölkə üzrə vahid ödəniş faizləri müəyyənləşdirilib. Həm faiz dərəcələrinin yüksəldilməsi, həm minimum əməkhaqqının əhəmiyyətli dərəcədə artımı, həm də ölkə regionları üzrə qeyd olunan fərqlərin aradan




qaldırılması sahibkarların sığorta yükünü kifayət qədər artırdığından, onların maliyyə vəziyyətini çətinləşdirmişdi. Pandemiya dövründə isə bu sahədə vəziyyət daha da çətinləşdiyindən, sahibkarların sosial sığorta yükünün azaldılmasına böyük ehtiyac yaranıb. Bu baxımdan "Sosial sığorta haqqında" Qanuna edilən dəyişikliklərlə sosial sığorta ödənişlərinin səviyyəsində respublikanın regionları üzrə əvvəllər mövcud olmuş differensasiyanın yenidən tətbiqi nəzərdə tutulur. Cari ilin aprel ayının 1-dən 2021-ci ilin 1 yanvarına qədər isə, həmçinin, faiz dərəcələrinin tikinti və ticarət sahələrində 50%-dən 25%-ə, digər sahələrdə isə 25%-dən 15%-ə qədər azaldılması nəzərdə tutulur. Əgər tikinti və ticarət sahəsində fəaliyyət göstərən sahibkarlar mövcud qanuna əsasən, 125 manat (250*50/100) sosial sığorta haqqı ödəyirdilərsə, dəyişikliklərdən sonra 62,5 manat (250*25/100) ödəməli olacaqlar. Digər sahələrdə isə bu məbləğ 62,5 manatdan 37,5 manata qədər azalacaq".

**F. Şahbazovun fikrincə, sözügedən yenilik mühüm əhəmiyyət kəsb edir: "Qeyd olunan dəyişikliklər həm sahibkarlar, həm də ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. İlk növbədə, bununla sahibkarların investisiya imkanları artmış olacaq ki, bu da postpandemiya dövründə onlara əlavə imkanlar yaradacaq. Digər tərəfdən isə vergi ödəyicilərinin sayının artması ölkədə qeyri-rəsmi məşğulluğun səviyyəsinin azaldılmasına imkan verəcək. Sosial sığorta haqlarına ölkə regionları üzrə differensiallaşdırmanın tətbiqi regional inkişafa da öz töhfəsini verəcək".**

***Vidadi ORDAHALLI***




# "Azəriqaz" sosial şəbəkələrdə təxribatçı məlumatlarla bağlı Daxili İşlər Nazirliyinə müraciət etdi

**"Azəriqaz" İstehsalat Birliyi (İB) Daxili İşlər Nazirliyinə müraciət edib. Baki-xeber.com xəbər verir ki, Birliyin Daxili İşlər Nazirliyinə ünvanladığı telefonqramda son günlər sosial şəbəkələrdə təxribat xarakterli məlumatların yayılması əksini tapıb.**

İB-nin müraciətində deyilir:"Qeyd etmək istəyirik ki, sosial şəbəkələrdə "Azəriqaz" İstehsalat Birliyi haqqında yalan məlumatlar yayılmışdır. "Youtube", "Facebook" sosial şəbəkələri və "WhatsApp", "İnstagram" messencerlərində naməlum şəxs (və ya şəxslər) tərəfindən həqiqətə uyğun olmayan "Azəriqaz smart-karta edilən son ödənişləri sizə geri qaytarır" kimi yanlış məlumatlar paylaşılıb, səs yazıları, elanlar verilib. Buna görə də ölkə üzrə fəaliyyətinə icazə verilən bəzi marketlərdəki "E-manat", "MilliÖn" və s. ödəmə terminalları qarşısında aprelin 26-sı gecə saatlarında karantin rejiminin tələbləri pozulmaqla ciddi sıxlıq və növbələr yaranıb. Bildirmək istərdik ki, tövsiyyə olunan yanlış əməliyyat abonentlərin smartkartlarında ciddi qüsurun yaranması, kartların bloklanması və yararsız hala düşməsi, eləcə də Birliyə və istehlakçılara maddi ziyanın vurulması ilə nəticələnə bilər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, bu kimi təxribat xarakterli məlumatların yayılmasının qarşısının alınması məqsədilə, təqsirli şəxs(lər)in dairəsinin müəyyən və məsuliyyətə cəlb edilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin görülməsinə göstəriş verməyinizi xahiş edirik".

**Azərbaycan müstəqillik əldə etdikdən sonra gündəmdə olan məsələlərdən biri Bakının Baş planının hazırlanması olub. İllərdir aktuallığını saxlayan bu problemin həll edilməməsi nəticəsində paytaxtda həyata keçirilən tikinti işləri sahəsində ciddi nizamsızlıq hökm sürür.**

# Bakının Baş planının almanlara verilməsinə əsas reaksiyalar - "kiçik bir yolu dəfələrlə tikib-sökən yerli şirkətlərə..."

***Fariz Xəlilli:** "Alman şirkəti tərəfindən işlənib hazırlanacaq Bakının yeni Baş planının tələbləri aidiyyəti qurumlar tərəfindən dürüstlüklə, dəqiqliklə yerinə yetirilərsə..."*



*"Bu tenderdə təcrübəli alman şirkətinin qalib gəlməsi təqdirəlayiqdir"*

Bəzən görürsən ki, heç yaşayış yeri üçün nəzərdə tutulmayan bir yerdə hansı şirkətsə çoxmərtəbəli bir bina ucaltdı, başqa birisi market tikdirdi və s. Gerçəklik budur ki, Bakının Baş planının olamaması şəhərdə quruculuq-tikinti işlərində müəyyən pərakəndəliklərin yaranmasına səbəb olub.

Məlum olduğu kimi, dəfələrlə Prezident İlham Əliyev Bakının Baş planının hazırlanması məsələsinin vacibliyini vurğulayıb və bu işin icrası üçün müvafiq qurumlara göstəriş verib. Bundan başqa, Bakının yeni mərkəzi rayonunun yaradılması məsələsi də aktualdır. Bakının Baş planı hazırlanarkən bunun da həll ediləcəyi gözlənir.

Memarlar İttifaqının sədri Elbəy Qasımzadə mətbuata bildirib ki, Bakının Baş planının işlənməsi məşhur alman şirkətinə tapşırılıb. Söhbət "Alber Şpeer və tərəfdaşları" şirkətindən gedir.

Onun sözlərinə görə, məşhur alman şirkəti Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin keçirdiyi tenderin qalibi seçilib: "Mən tender komissiyasının üzvü idim və biz hesab etdik ki, alman firması bizim şərtlərimizə daha çox uyğun gəlir".

Bundan əvvəlki Baş plan layihələrindən söhbət açan tanınmış memar onların da bugünkü şəhərsalma işlərində faydasından danışıb: "Prinsipcə, Baş plan hər zaman olub, keçən əsrin 30-cu illərindən. O vaxtdan onun tədricən reallaşması gedir. Vağzal - Elmlər Akademiyası oxu hələ həmin ilk Baş planda öz əksini tapmışdı. Birinci hissəyə vağzaldan Səməd Vurğun küçəsinə qədər olan ərazi daxil idi. Vaxt keçdi və biz onun davamı olaraq Akademik Milli Dram Teatrına və Nəriman Nərimanov küçəsinə qədər olan hissəni reallaşdırdıq. Yəqin ki, tezliklə bu ox Hüseyn Cavid prospektində yerləşən Elmlər Akademiyasına qədər davam edəcək".

E.Qasımzadə şəhər çərçivəsində olan qəsəbələrin gələcək taleyi ilə də bağlı fikirlərini bölüşüb: "Baş plan şəhərin inkişaf strategiyasını müəyyənləşdirməlidir. Axı şəhər çərçivəsində olan torpaq resurslarından istifadə etmək olar. Bizdə hələ də şəhər mərkəzində Xutor, Alatava, Keşlə kimi qəsəbələr var. Aydındır ki, onlar olduqları şəkildə qala bilməzlər. Eyni zamanda, biz deyə bilmərik ki, qısa müddətdə bu qəsəbələr köçürülməlidir. Bu tədricən baş verəcək".

Bakıətrafı qəsəbələrin və nəqliyyat infrastrukturunun inkişafı məsələsinə gəldikdə isə, o, alman şirkətinin maraqlı təkliflərindən danışıb: "Belə bir ideya var ki, dünyanın iri şəhərlərində olduğu kimi, bizdə də yerüstü metro tikilsin. Belə olan təqdirdə, Abşeronun səthi düz olduğu üçün relslər dayaqlar üzərinə qoyulmasa da, olar. Lakin bəzi yerlərdə yəqin ki, bunu etmək lazım gələcək".

Qeyd edək ki, Bakı şəhərinin ilk Baş planını 1898-ci ildə məşhur memar, alman əsilli rus mühəndisi, elə həmin ildən 1902-ci ilə kimi şəhər başçısı vəzifəsində çalışan N.A.Nonne hazırlayıb. 1932-ci ildə ikinci, 1964-cü ildə üçüncü, nəhayət, 1986-cı ildə dördüncü Baş plan tərtib olunub. Dünya Bankı ilə bağlanmış kredit sazişinə əsasən, 2011-2014-cü illərdə "Bakı dövlətlayihə" institutu tərəfindən hazırlanan sonuncu layihə isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən qəbul olunmayıb. Komitə bu mövqeyini şəhərin sosial-iqtisadi inkişafının bir çox istiqamətlərinin sənəddə düzgün əks olunmamasıyla əsaslandıraraq, ona yenidən baxılacağı bildirilib.

Qayıdaq alman şirkəti tərəfindən hazırlanacaq Bakının Baş planına. Ekspertlər bildirirlər ki, Bakının Baş planının hazırlanması üçün tender elan edilməsi çox müsbət haldır. Onların qeyd etdiyinə görə, bu prosesin icrası tendersiz yerli şirkətlərdən birinə həvalə edilsəydi, çox böyük problemlə qarşılaşardıq. Memarların bildirdiyinə görə, Azərbaycandakı şirkətlərin böyük əksəriyyəti belə məsuliyyətli vəzifənin öhdəsindən gələ bilməzdi. Memarların bildirdiyinə görə, son illər Bakıdakı yararsız, pərakəndə həyata keçirilən tikinti işləri bir sıra şirkətlərin öz fəaliyyətinə məsuliyyətsiz yanaşdığının göstəricisidir. Onlar vurğulayırlar ki, paytaxtda tikildikdən sonra ən azı bir-iki dəfə sökülüb yenidən inşa olunmayan yol qovşağı, yol, körpü az-az tapılar. Demək olar ki, yollar tikildikdən qısa bir vaxt keçməmiş, darmadağın olur və dövlətin külli miqdarda vəsaiti göyə sovrulur, buna görə isə heç bir şirkət məsuliyyət daşımır.

Odur ki, memarlar hesab edirlər ki, Bakının Baş planının işlənməsinin alman şirkətinə həvalə edilməsi müsbət nəticə verəcək. Bakının Baş planının hazırlanması ilə bağlı Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin keçirdiyi tender ölkə başçısının ciddi nəzarətində olduğu üçün belə obyektiv seçim edilib.

MİRAS-Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli bizimlə söhbətində dedi ki, Bakının Baş planının işlənməsinin məşhur alman şirkətinə tapşırılması düzgün seçimdir. F.Xəlilli hesab edir ki, "Alber Şpeer və tərəfdaşları" şirkəti bu sahədə kifayət qədər peşəkardır və böyük təcrübəyə malikdir: "Bilirsiniz ki, Bakının son Baş planı Sovet dövründə hazırlanıb. Bu gün Bakının Baş planı yoxdur və bu da tikinti sahəsində mövcud xaosun yaranmasına səbəb olub. Cənab Prezidentin Bakının Baş planının hazırlanması ilə bağlı müvafiq qurumlara xüsusi tapşırıq verməsi bu istiqamətdə vəziyyətin nə qədər ciddi olduğunu göstərir. Bakının Baş planının hazırlanması üçün xüsusi tender elan edilməsi və bu tenderdə təcrübəli alman şirkətinin qalib gəlməsi təqdirəlayiqdir. Bu şirkətin indiyə qədər bu sahədə gördüyü işlər ona məxsus sayta yerləşdirilib. Mən bu işin peşəkar, təcrübəli alman şirkətinə həvalə edilməsinə müsbət yanaşıram. Bu şirkət Bakının Baş planını lap baha qiymətə işləsə belə, bu, məncə, görəcəkləri işə dəyər.

**Bakının Baş planının hazırlanmasından sonra aidiyyəti qurumlar tərəfindən onun icrasında hər hansı bir problem yaradılmayacağına inanmaq istəyirəm. Ümid edirəm ki, sonradan bu planlar kənara atılmayacaq. Alman şirkəti tərəfindən işlənib hazırlanacaq Bakının yeni Baş planının tələbləri aidiyyəti qurumlar tərəfindən dürüstlüklə, dəqiqliklə yerinə yetirilərsə, biz mövcud vəziyyətlə vidalaşacağıq və çox üstün vəziyyətin şahidi olacağıq. Çox istəyirəm ki, bu işi icra edəcək adamlar işlərinə məsuliyyətlə yanaşsınlar, dövlətimizin, xalqımızın maraqlarını qohum-əqrəbalarına güzəştə getməsinlər" - deyə mütəxəssis qeyd etdi.**

***İradə SARIYEVA***

№ 67 (4198) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

29 APREL 2020-ci il



# Bunu edəndə üzünüz qızarırsa...

**Pivə içəndə üzünüz qızarırsa, dərhal içməyi dayandırın. Alkoqollu içkilər əksər ziyafətin və şənliklərin ayrılmaz hissəsidir.**

Pivə, şərab, araq, rom, bir çox kokteyli içməyi kim sevmir ki? Ancaq alkoqoldan üzünüz qızarırsa, diqqətli olun! Alkoqol qəbul edərkən üzdə qızartı əmələ gəlməsi sizin ona qarşı dözümsüzlüyünüzü göstərir. "Milli.Az" xəbər verir ki, bu, adətən, ürək bulanması və baş ağrısı ilə müşayiət olunur. Buna səbəb orqanizmdə asetaldehidin yığılmasıdır. Çox zəhərli və kanserogen bir maddədir. Anadangəlmə dözümsüzlük yoxdursa, qaraciyərdə spirt dərhal daha zərərsiz asetata çevrilir. Dözümsüzlük varsa, onda asetaldehidin asetata çevrilməsi daha uzun müddətə baş verir. Nəticədə daha çox sərxoş olursunuz, daha ağır nəticələr hiss edirsiniz. Bu da ağız və boğaz xərçənginə tutulma risqini artırır. Anadangəlmə dözümsüzlük müalicə edilmir. Bu, Çin və Şərqi Asiyanın digər sakinləri arasında çox yayılıb - bütün şərqi asiyalıların üçdə birində spirtə qarşı anadangəlmə dözümsüzlük var. Əlbəttə, bunda bir üstünlük də var: onları ya sərxoşluq, ya da alkoqolizm təhdid etmir. Beləliklə, spirt içdikdən sonra üzün qızarması genetik pozğunluq da ola bilər.



## 1600 illik tabutu açdılar

**Arxeoloqlar Misirin Luksor şəhərində 1600 il əvvələ aid tabut aşkar ediblər.**

"Milli.Az" bildirir ki, tabutdakı mumiyanın yaşı 15-16 olan qıza aid olduğu güman edilir. Arxeoloqları təəccübləndirən digər məqam isə tabutda olduqca bahalı zinət əşyalarının üzə çıxmasıdır. Uzunluğu 1,75 sm olan tabutda kəhrəba, kvars kimi tünd və açıq rəngli qiymətli daşlardan hazırlanmış boyunbağılar aşkar edilib. Misirin Əsərlər üzrə Ali idarəsinin rəhbəri Məhəmməd Abdulbedinin sözlərinə görə, qiymətli daşlardan hazırlanan boyunbağılar son illərin ən dəyərli tapıntısıdır. Qeyd edək ki, İspaniya və Misirdən olan arxeoloqlar uzun müddətdir bölgədə araşdırmalar aparırlar.

## Koronavirus xəstələri niyə üzüstə yatır?

**COVID-19-a yoluxan və intensiv terapiya şöbələrində müalicə alan xəstələrin üzüstə yatması çoxlarının diqqətini çəkib.**

"Milli.Az" xəbər verir ki, mütəxəssislər bu üsulun həyati əhəmiyyətə sahib olduğunu bildirirlər. Koronavirus xəstələrinə qulluq edən tibb bacıları oksigenləşmənin daha rahat təmin edilməsi və ödemin yığılmaması üçün xəstələrin bu formada yatırıldığını deyirlər. Tibb işçilərinin sözlərinə görə, sözügedən situasiya mediada yayımlandıqca, insanlar arasında təşvişə səbəb ola bilər. Lakin xəstələr üçün bunun tam əksi baş verir.

Azercell

## "Azercell"dən müəllimlərə dəstək!

*Mobil operator sosial izolyasiya şəraitində onlayn tədris verən müəllimlərə internet paketi təqdim edib*

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus infeksiyası (COVID-19) ilə mübarizə şəraitində baş tutan növbəti sosial tədbirdə yer alıb.**

Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümumtəhsil müəssisələrinin şagirdləri üçün məsafədən tədris imkanlarını genişləndirmək məqsədilə başlatdığı yeni layihəsi çərçivəsində Təhsil Nazirliyinin və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) dəstək çağırışlarına "Azercell" də qoşulub. Şirkət bu məqsədlə yaradılmış "Virtual Məktəb" portalı üzərindən qeydiyyatdan keçmiş və "Azercell" abunəçisi olan 25000-dən artıq müəllim-pedaqoji heyətinin mobil nömrə balansına hədiyyə olaraq iki ay ərzində 10 AZN dəyərində 5GB internet paketi yükləməklə təşəbbüsə öz qatqısını verəcək. Qeyd edək ki, onlayn tədris üçün internet paket alacaq müəllim-pedaqoji heyətinin siyahısı www.virtual.edu.az saytında aparılan qeydiyyata əsasən Təhsil Nazirliyi tərəfindən təqdim olunur.

Hədiyyə paketinin qoşulması və aktivləşdirilməsi üçün mövcud olan müəyyən texniki şərtlərlə https://www.azercell.com/az/news/show/1094/ ünvanında tanış olmaq mümkündür.

Məlumat üçün bildirək ki, www.virtual.edu.az saytı istifadəçilərə tədris prosesinə aid tapşırıqları onlayn şəkildə yerinə yetirmək imkanını təqdim edir. Hazırda portalda 600000-dən çox şagird və 50000-dən çox müəllim qeydiyyatdan keçib.

"Azercell Telekom" MMC tərəfindən cəmiyyətimizə dəstək məqsədilə sosial təşəbbüslərin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulur.





**Qoç** - Gəzintilər, müxtəlif mövzularda söhbətlər, sadəcə, təbiətin seyri üçün gözəl gündür. Yaradıcı potensial artır, yeniliklər, qeyri-standart həllər axtarıb tapmaq asan olur. Sevgililər arasında münaqişələr tez-tez yaranır, amma barışıq mərasimi çox ehtiraslı və çılğın keçir.



**Buğa** - Şəxsi münasibətlərdə problemlər yaranmır. Xoşunuza gələn adamlarla asanlıqla ümumi dil tapırsınız, onlarda özünüzə qarşı maraq oyadırsınız. Bu gün xeyli kompliment eşidəcəksiniz.



**Əkizlər** - Bu gün çox vacib bir şey öyrənəcəksiniz. Yeni məlumatı yaxşı istifadə edə biləcəksiniz, o, düşmənlərinizlə mübarizədə sizin əlinizdə güclü bir silaha çevriləcək. Rəhbərlik və həmkarlarla aranızda fikir ayrılıqları yarana bilər.



**Xərçəng** - Möhtəşəm biznes-ideyaları yaranacaq. Günün ikinci yarısı alış-veriş üçün əladır. Bu gün qənaət etməyə bilərsiniz: pullar lazımi yerə sərf olunur. Maraqlı təkliflər, gözlənilməz diqqət, sürprizlər mümkündür.



**Şir** - Narahat olacaqsınız: işlər istədiyiniz kimi getmir, vacib qərarları məhz iş prosesində verməli olursunuz. Bürcün bir çox nümayəndələri başqalarının günahı ucbatından çətin şəraitə düşür və bu situasiyadan böyük çətinliklə çıxış yolu tapırlar.



**Qız** - Həm işgüzar, həm də şəxsi xarakterli tanışlıqlar üçün münasib gündür. Təsadüfi görüşlər taleyüklü ola bilər. Məsələn, küçədə tanış olub danışdığınız adam sizin ömür-gün yoldaşınıza çevrilə bilər.



**Tərəzi** - Bugünkü uğurlarınızın əksəriyyəti, gözlədiyiniz kimi şəxsi həyatınızla deyil, işlə bağlı olacaq. İri alış-veriş etmək, daşınmaz əmlak almaq, kirayə etmək məsləhət deyil. Hədiyyə almağınız mümkündür.



**Əqrəb** - Dostlarla, yaxud sevgilinizlə görüş üçün əla gündür. Hamının diqqət mərkəzində olmaq xoşunuza gəlir. Bir çox Əqrəblər bu gün maraqlı insanlarla tanış olacaqlar. Enerjiniz çoxdur, səhhətinizdən şikayətiniz olmayacaq.



**Oxatan** - Səyahətə çıxmaq, şəraiti dəyişmək, hətta həyatınızda əməlli-başlı çevriliş etmək həvəsi çox güclüdür. Təəssüf ki, indi bunu edə bilməzsiniz, əvvəlcədən seçdiyiniz yolla gedin.



**Oğlaq** - Günün böyük hissəsini ora-bura getməklə keçirəcəksiniz. Qıçınızı qatlayıb bir yerdə oturmağı çox istəyərdiniz, amma ki, şərait buna imkan vermir. Maraqlı görüşlər mümkündür.



**Dolça** - Siz insanlardan çox şey gözləyirsiniz. Onlar isə köməyinizə gəlmir, verdikləri sözlərə əməl etmirlər. Küskünlüklərə vaxt və əsəb sərf etməyin. Yaxşı olar ki, şəraitin öhdəsindən təklikdə necə gələcəyinizi düşünəsiniz.



**Balıqlar** - Xoşunuza gəlməyən insanın qayğısına qalmalı olacaqsınız. Yeganə mükafatınız isə o olacaq ki, özünüzü borcunuzu yerinə yetirmiş hiss edəcəksiniz. Günün ikinci yarısı rəhbərlik və yaxud nüfuzlu bir şəxslə aranızda münaqişə yarana bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Daimi soyuq ayaqlar nədən xəbər verir?

**Almaniya həkimləri insanın immun sisteminə mənfi təsir edən amillər və vərdişləri açıqlayıblar. "E-tibb.az" bildirir ki, onlar hesab edirlər ki, bədənin müdafiə sisteminin əsas düşmənlərindən biri siqaret çəkməkdir.**

Çünki siqaret tüstüsü bronxları zədələyir, ağciyərdən zəhərli maddələrin çıxarılmasının qarşısını alır. Bu prosesə spirtdən müntəzəm istifadə də mənfi təsir göstərir. Mütəxəssislər immunitetin zəif olmasının həm də ayaqların gəzməklə bağlı olduğunu vurğulayıblar. Onlar hesab edirlər ki, ayaqların daim soyuq olması qan dövranının zəif olması ilə bağlıdır. Bu, zərərli mikroorqanizmlərin çoxalmasına şərait yaradır. Bundan əlavə, gec yatmaq, daimi stress və yüksək kalorili qidalar da immun sistemə əngəl yaradır. Belə ki, bu hala orqanizm infeksiyaya olan reaksiya kimi cavab verir. Daimi yüklənmə və stress nəticəsində zamanla immun sistemi tükənir.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.